**Azərbaycan Respublikası Prezidentinin 07.07.2011-ci il tarixli 1621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının müvafiq bəndlərinin Gənclər və İdman Nazirliyi tərəfindən icrası vəziyyətinə dair**

**CƏDVƏL**

| Tədbirin №-si | Tədbirin adı | İcra müddəti | İcraçılar | Icra vəziyyəti | İcra vəziyyətinin qiymətləndirilməsi |
|---|---|---|---|---|---|
| **6.1. Gənclərlə iş sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və infrastrukturun inkişafı** | | | | | |
| 6.1.1. | Normativ hüquqi aktların gənclərlə bağlı müddəalarının təhlili və onların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması | 2011-2015 | Nazirlər Kabineti, Gənclər və İdman Nazirliyi, aidiyyəti dövlət orqanları | **GİN:** Nazirliyin BMT-nin Uşaq Fondu ilə birgə imzaladığı 2012-2013-cü illər üçün Dövrü Fəaliyyət Planına əsasən “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu yerli və xarici ekspertlər tərəfindən nəzərdən keçirilmiş, beynəlxalq standartlarla müqayisəli təhlil edilmiş və gənclərin müzakirəsinə çıxarılmışdır.<br>“Gənclər siyasəti haqqında” qanuna dəyişikliklər və əlavələr Milli Məclisə təqdim olunmuşdu (2016-ci ilin payız sessiyasında qəbul edilməsi nəzərdə tutulub).<br>Mövcud normativ-hüquqi sənədlərdə gənclərin məşğulluğu, karyerası, iqtisadi və sosial maraqlarının daha yaxşı nəzərə alınması məqsədilə Nazirlik BMT-nin İnkişaf Proqramı (BMTİP) ilə birgə 2012-2013-cu illərdə “Qərarların qəbulu və dövlət siyasətinin icrasında gənclərin iştirakı” layihəsini həyata keçirmişdir. Layihə çərçivəsində “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı” və "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın gənclərin problemlərinə nə dərəcədə həssas olmasını təhlil etməyə imkan verən analitik metodologiya işlənib hazırlanmışdır. | Tam icra olunub |
| 6.1.2. | Gənclər üçün Prezident Mükafatının təsis olunması ilə bağlı təkliflərin təqdim edilməsi | 2011-2012 | Nazirlər Kabineti, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli | **GİN:** Azərbaycan Prezidenti cənab İlham Əliyevin 02 iyul 2013-cü il tarixli 934 №-li Fərmanı ilə “Gənclər üçün Prezident Mükafatı” təsis edilmişdir.<br>Nazirlər Kabinetinin 4 dekabr 2013-cü il tarixli 335 №-li qərarı ilə Gənclər üçün Prezident Mükafatı diplomunun nişanının və həmin nişanın vəsiqəsinin təsviri təsdiq edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 1 fevral 2014, 31 yanvar 2015 və 30 yanvar 2016-ci il tarixli Sərəncamları ilə–elm, təhsil, mədəniyyət, | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | Elmlər Akademiyası | ədəbiyyat və ictimai fəaliyyət sahələrində fərqlənmiş 18 nəfər gəncə "Gənclər üçün Prezident Mükafatı" təqdim edilmişdir. | |
| 6.1.3. | Bakı şəhərində Azərbaycan Gənclər Mərkəzinin yaradılması | 2011-2013 | Gənclər və İdman Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti | **GİN:** Mərkəzin yaradılması üçün Nazirlik tərəfindən Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edilmişdir (11.07.2011-ci il tarixli 1495/R-06/16 nömrəli, 22.08.2011-ci il tarixli 1782/R-06/16 nömrəli və 29.12.2011-ci il tarixli 2822/R-02/16 nömrəli məktublar). Bakı Şəhər İcra Hakimiyyətindən daxil olmuş məktublarda (26.09.2011 tarixli 2179 nömrəli, 05.01.2011 tarixli 01 nömrəli, 23.01.2012 tarixli 172 nömrəli məktublar) ayrılması məqsədəuyğun hesab edilən ərazi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə müraciət edildiyi və razılıq əldə olunduğu halda sənədləşmə işlərinin aparılacağı barədə məlumat verilmişdir. AR DNŞ müvafiq ərzinin olmadığını bildirmişdir. | İcra olunmayıb |
| 6.1.4. | Gənclər Fondunun yaradılması | 2011-2012 | Nazirlər Kabineti, Gənclər və İdman Nazirliyi, Maliyyə Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi | **GİN:** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 dekabr 2011-ci il tarixli Fərmanı ilə Gənclər Fondu yaradılmış, onun Əsasnaməsi təsdiq edilmiş və işçilərinin say həddi müəyyən edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 801 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2011-ci il tarixli 542 nömrəli Fərmanına dəyişiklik edilərək Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu təsis olunmuşdur. | Tam icra olunub |
| 6.1.5. | Gəncə, Mingəçevir, Naxçıvan, Sumqayıt, Şəki, Şirvan, Bərdə, Qazax, Quba və Şamaxıda "Gənclər evi"nin yaradılması | 2011-2015 | Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyətləri | **GİN:** 2013-cü ilin aprel ayında Mingəçevir şəhərində, 2014-cü ildə Naxçıvanda, 2015-ci ildə Sumqayıtda, 2016-ci ildə Gəncə və Tovuzda "Gənclər evi" istifadəyə verilmişdir.<br>2016-ci ilin sonunadək Şirvan və Bərdədə "Gənclər evi"nin tikilib istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Lakin vəsait açılmadıqdan bu şəhərlərdə, eyni zamanda Şəki, Quba və Şamaxı rayonlarında tikinti işləri dayandırılıb. | Qismən icra olunub |
| 6.1.6. | Müvafiq ixtisaslar üzrə hazırlıq aparan ali təhsil müəssisələrində gənclər üçün biznes, informasiya texnologiyaları inkubatorlarının yaradılması | 2012-2013 | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Gənclər və İdman Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi | **GİN:** 13-15 dekabr 2011-ci il tarixdə Bakı şəhərində "Biznes inkubatorların fəaliyyəti və gənclərin mobil sahibkarlığına dəstək: dünya ölkələrində qazanılmış təcrübə və Azərbaycanda bu sahənin inkişaf perspektivləri" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Beynəlxalq konfransda Almaniya, Polşa, Rumıniya, Bolqarıstan, Montoneqro, Ukrayna və Belarusiyanın təcrübəsi öyrənilmişdir. mübadilələri aparılmışdır.<br>15 avqust 2014-cü il tarixdə GİN və Azərbaycan Dövlət İqtisad Universiteti (ADİU) arasında əməkdaşlığa dair müqavilə bağlanmışdır. Müqaviləyə əsasən ADİU-nun nəzdində yaradılmış "İnnovativ Biznes-inkubator"un keçirdiyi tədbirlərə maliyyə və təşkilati dəstək göstərilmişdir | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | Nazirliyi, Ədliyyə Nazirliyi | (tələbə startapları və tələbə-sahibkarlar üçün peşəkar təlimlərin keçirilməsi, startapların yaradılması üzrə ixtisaslaşdırılmış metodiki ədəbiyyatın hazırlanması, biznes-planların və marketinq strategiyalarının, şəxsi biznesin aparılması və inkişafı üzrə tövsiyələrin hazırlanması və s.).<br>GİN, “The Coca-Cola Company” şirkətinin maliyyə dəstəyi və “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin təşkilatçılığı ilə 2014-cü ilin fevral ayından “Youth.İnc” layihəsi həyata keçirilir. Layihənin məqsədi – biznes inkubator vasitəsilə gənclərin sahibkarlıq fəaliyyətini inkişaf etdirməkdir. Layihədə 5 minə yaxın gənc müxtəlif təlimlərdə iştirak edib və bir neçə startap yaradılıb. 22 oktyabr 2015-ci il tarixdə “Youth.İnc” biznes inkubatorun rəsmi açılış mərasimi keçirilmişdir. | |
| 6.1.7. | Gənclərlə bağlı statistik məlumatların hazırlanmasının təkmilləşdirilməsi və sosioloji tədqiqatların aparılması | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Dövlət Statistika Komitəsi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | **GİN:** 2011-ci ildə UNİCEF-lə birgə “Yeniyetmə və gənclərin vəziyyətinə dair sorğu” keçirilmişdir. Fevral – aprel 2012-ci il tarixlərdə gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi haqqında 2000 nəfər arasında sorgu keçirilmişdir. 2013-cü ildə “Gənclərin peşə mobilliyinin öyrənməsi” üzrə sosioloji tədqiqat keçirilmişdir. 1500 nəfər ali təhsil müəssisəsinin 5 ixtisas qrupu üzrə təhsil alan tələbə və məzun sorğuda iştirak etmişdir. Hesabat hazırlanıb nəşr edilmişdir. | Tam icra olunub |
| 6.1.8. | Gənclər və gənc ailələr üçün ipoteka kreditlərinin alınması imkanlarının genişləndirilməsinə dair təkliflərin hazırlanması | 2011-2012 | Nazirlər Kabineti, Gənclər və İdman Nazirliyi, Mərkəzi Bank | **GİN:** Gənclərin və gənc ailələrin ipoteka kreditlərinin alınması imkanlarının genişləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərman layihəsi hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir (311/$R_2$-02/10 nömrəli, 15.11.12 tarixli məktub). 2013-cü ildə nazirliyin sifarişi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi tərəfindən "Azərbaycanda ipoteka kreditinin təkmilləşdirilməsi konsepsiyası" hazırlanmışdır. | Tam icra olunub |
| 6.1.9. | Dövlət uşaq evlərindən və internatlardan ayrılmış, valideynlərini itirmiş və valideyn | 2012 | Nazirlər Kabineti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman | **GİN:** Təkliflər hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir (311/$R_2$-02/10 nömrəli, 15.11.12 tarixli məktub). Sənəd razılaşdırılmaq üçün müvafiq nazirliklərə təqdim edilmiş, rəylər toplanmışdır.<br>Təqdim edilmiş təkliflər gənclərin münasib işlə və yaşayış sahəsi ilə təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi üzrə hökumətin hazırladığı normativ sənədlərdə istifadə edilir. | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | himayəsindən məhrum olmuş gənclərin münasib işlə və yaşayış sahəsi ilə təmin edilməsi mexanizminin təkmilləşdirilməsi | | Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Bundan əlavə Nazirliyin maliyyə dəstəyi ilə SOS Azərbaycan Uşaq Kəndləri Assosiasiyasının "Dövlət uşağa qayğı müəssisələrini tərk etməkdə olan və tərk etmiş gənclərin sonrakı həyatını tənzimləyən mexanizmlərin yaradılması" layihəsi həyata keçirilmişdir. | |
| 6.1.10. | Dövlət mülkiyyətində olan yaradıcılıq emalatxanalarının, sərgi salonlarının yaradıcı gənclərin istifadəsinə güzəştli şərtlərlə verilməsi ilə bağlı təkliflərin hazırlanması | 2011-2012 | Nazirlər Kabineti, Əmlak Məsələləri Dövlət Komitəsi, Mədəniyyət və Turizm Nazirliyi, Gənclər və İdman Nazirliyi | **GİN:** Nazirlik tərəfindən təqdim edilmiş təkliflər əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət mülkiyyətində olan yaradıcılıq emalatxanalarının, sərgi salonlarının güzəştli şərtlərlə yaradıcı gənclərin istifadəsinə verilməsi qaydaları"nın təsdiq edilməsi və "Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği"nin təsdiq edilməsi haqqında" 2007-ci il 29 noyabr tarixli 191 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" qərarı qəbul etmişdir (327 nömrəli, 18 noyabr 2013-cü il tarixli Qərar). | Tam icra olunub |
| 6.1.11 | Gənclər üçün mənzil kooperativlərinin yaradılmasının dəstəklənməsi | 2011-2015 | Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyətləri | **GİN:** Gənclər və İdman Nazirliyi yanında fəaliyyət göstərən Gənclərlə iş üzrə İctimai Şuraya daxil olan bir qrup gənclər təşkilatları tərəfindən gənclər üçün mənzil kooperativlərinin yaradılması ilə bağlı təkliflər hazırlanmışdır.<br>Gənclərin mənzil kooperativləri ilə bağlı Nazirliyə müraciət edilmədiyindən belə dəstək göstərilməmişdir. | İcra olunmayıb |
| **6.2.** | **Gənclərin vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi** | | | | |
| 6.2.1. | Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında geniş təbliğ edilməsi | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti | **GİN:** 2011-2015-ci illərdə Bakı, Mingəçevir, Gəncə, Sumqayıt, Şirvan, Lənkəran şəhərlərində, Yevlax, Şəki, Qax, Xaçmaz, Quba, Qusar, Göyçay, Masallı, Biləsuvar, Zərdab, Ağdaş, İsmayıll, Saatlı, Sabirabad, Ağsu və Şamaxı rayonlarında "Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda konfranslar və "Azərbaycançılıq məfkurəsi və gənclik" adlı mədəni-kütləvi tədbirlər keçirilmişdir.<br>Ümumilikdə 22 rayon və şəhərdə keçirilən konfranslarda ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin fəlsəfi anlamı və əsas ideoloji prinsipləri gənclərə çatdırılmış, mədəni-kütləvi tədbirlərdə onminlərlə gənc iştirak etmişdir.<br>Gənclərin asudə vaxtının səmərəli təşkili, diyarşünaslığın inkişaf etdirilməsi və Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin təbliği məqsədi ilə 2012-2014-cü illərdə Lənkəran və Şəki şəhərlərində, Quba, Qax, Göygöl, Xaçmaz və İsmayıllı rayonlarında "Azərbaycan doğma | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | diyarımdır" adlı vətənpərvərlik yay-istirahət düşərgələri təşkil edilmişdir. Düşərgələrdə 7 minədək 14-18 yaşlı gəncin iştirakı təmin edilmişdir. | |
| 6.2.2. | "Virtual Qarabağ" adlı İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin yaradılması | 2012 | Rabitə və İnformasiya Texnologiyalar Nazirliyi, Gənclər və İdman Nazirliyi | **GİN**: 2013-cü ildə "Virtual Qarabağ" İnformasiya Kommunikasiya Texnologiyaları Mərkəzi təsis edilmişdir.<br>az/org/com/net/info/co.uk domenləri ilə virtualkarabakh adlı azərbaycan, ingilis, rus, türk, fransız dillərində internet portalı yaradılıb və fəaliyyət göstərir.<br>Azərbaycan və ingilis dilində "Qarabağa doğru" təqdimat filmi istehsal olunub ictimaiyyətə təqdim edilmişdir.<br>Virtualkarabakh.az portalında Qarabağa dair elektron kitabxana yaradılmışdır.<br>"Hər şey Qarabağ üçün"- informasiya kampaniyası elan edilib (indiyədək davam edir).<br>"Virtual Qarabağ" İKT Mərkəzinin dəstəyi ilə "Qarabağnamə" adlı tələbələr arasında elektron intellektual yarış keçirilmişdir.<br>Mərkəz tərəfindən "Şuşa – virtual səyahət", "Laçın- virtual səyahət" və "Ağdam - virtual səyahət" 3 D qrafik təsvirli tətbiqi ərizə yaradılmış, Android sisteminin bazasına inteqrasiya edilərək, dünyanın müxtəlif Android sistemi istifadəçilərinə mobil yükləmə vasitəsi ilə nümayiş olunur.<br>2014-cü ildə Heydər Əliyev Fondunun, GİN dəstəyi ilə "Virtual Qarabağ" İKT Mərkəzinin həyata keçirdiyi beynəlxalq layihənin - "Qarabağın səsi" (Voice of Karabakh) musiqi albomunun Heydər Əliyev Mərkəzində təqdimat mərasimi keçirilmişdir.<br>"Qarabağa doğru", "Qarabağ Sizin üçün nə deməkdir", "Qafqaz Albaniyası – gecikmiş həqiqətlər", "Qarabağ Atı" filmləri istehsal olunmuşdur (Azərbaycan, ingilis və rus dillərində).<br>Yerli və xarici yaradıcı heyətin iştirakı ilə orjinalı ingilis dilində (azərbaycan və rus dilində subtitrlərlə) "Qafqaz Albaniyası – gecikmiş həqiqətlər" adlı sənədli film istehsal olunub 01.05.2015 – ci il tarixdə ictimaiyyətə təqdim edilmişdir.<br>700-dən çox eksponatın daxil olduğu "Virtual Qarabağ Tarixi Muzeyi" adlı virtual muzeyi yaradılıb, təqdimatı keçirilib, muzeyin genişlənməsi üzərində iş aparılır. Arxeologiya və Etnoqrafiya institutu ilə birgə isə "Qarabağın Dövlət əhəmiyyətli tarixi abidələrinin elektron xəritəsi" hazırlanmışdır. | Tam icra olunub |
| 6.2.3. | Azərbaycanın milli | 2011- | Gənclər və İdman | **GİN:** 24 iyun 2013-cü il tarixdə Biləsuvar rayonunda Azərbaycan | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | qəhrəmanlarının və ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət göstərmiş gənclərin tanıdılması ilə bağlı layihələrin həyata keçirilməsi | 2015 | Nazirliyi, Müdafiə Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti | Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş "Gənclərin intellektual yaradıcılıq festivalı" keçirilmişdir.<br>2014-cü ildən başlayaraq Azərbaycanın Milli Qəhrəmanlarının tanıdılması məqsədi ilə məktəblilər arasında keçirilən "Şahin" hərbi-idman oyununda iştirak edən komandalara onların adları verilmişdir. Komandalar Milli gəhrəmanların adı həqq olunmuş hər il hazırlanan bayraqlar altında çıxış edir. | |
| 6.2.4. | Hərbi xidmətdə olan gənclərin mənəvi-psixoloji durumunun yüksəldilməsinə və asudə vaxtının səmərəli təşkilinə kömək məqsədi ilə hərbi hissələrdə müxtəlif tədbirlərin keçirilməsi | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Sərhəd Xidməti, Səhiyyə Nazirliyi | **GİN:** 22 iyul 2011-ci il tarixdə Bakı şəhərində Fövqəladə Hallar Nazirliyi ilə birgə Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə qoşunlarının "N" saylı hərbi hissəsində "Mən fəxr edirəm ki, azərbaycanlıyam" adlı bilik yarışması keçirilmişdir.<br>16 mart 2012-ci il tarixdə "Novruz Bayramı" münasibəti ilə Türkan qəsəbəsində yerləşən Dövlət Sərhəd Xidmətinin sahil mühafizəsinin bazasında və Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə əsgər və zabit heyəti ilə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və yaradıcı gənclərin iştirakı ilə görüş keçirilmişdir.<br>25 may 2012-ci il tarixdə isə "28 may – Respublika Günü" münasibəti ilə Qusar rayonu ərazisində yerləşən, 15 noyabr 2012-ci il tarixdə "17 noyabr-Milli Dirçəliş günü" münasibəti ilə Ağdam rayonu ərazisində yerləşən "N" saylı hərbi hissələrdə görüşlər keçirilmişdir. Görüşlər zamanı incəsənət ustalarının iştirakı ilə konsert proqramları təşkil edilmiş, xidmətdə fərqlənən əsgər və zabitlər təqdimat əsasında Naziriyin "Fəxri Fərman"ları ilə təltif edilmiş, hərbi hissələrə hədiyyələr və idman ləvazimatları təqdim edilmişdir.<br>21 iyun 2012-ci il tarixdə "26 iyun-Silahlı Qüvvələr Günü" münasibəti ilə Tərtər rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə xidmət edən əsgər və zabit heyəti ilə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və yaradıcı gənclərinin iştirakı ilə görüş keçirilmişdir.<br>23 iyun 2012-ci il tarixdə nazirliyin təşkilatçılığı ilə «26 iyun - Azərbaycan Silahlı Qüvvələr Günü» münasibəti ilə Dövlət Sərhəd Xidmətinin və 24 iyun 2012-ci il tarixdə isə Fövqəladə Hallar Nazirliyinin "N" saylı hərbi hissələrində "Əsgər bayramı" adlı tədbirlər keçirilmişdir.<br>29 yanvar 2013-cü il tarixdə "2 fevral - Azərbaycan gəncləri günü" münasibəti ilə Goranboy rayonunda yerləşən hərbi hissələrdən birində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və yaradıcı gənclərinin iştirakı ilə | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | görüş keçirilmişdir.<br>15 mart 2013-cü il tarixdə Novruz bayramı münasibəti ilə Naftalan rayonu ərazisində yerləşən “N” saylı hərbi hissədə xidmət edən əsgər və zabit heyəti ilə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və yaradıcı gənclərinin iştirakı ilə görüş keçirilmişdir.<br>20 iyun 2013-cü il tarixdə Beyləqan rayonunda yerləşən hərbi hissələrdən birində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və yaradıcı gənclərinin iştirakı ilə görüş, 25 iyun 2013-cü il tarixdə isə Bakı çəhərində “Əsgər Bayramı” adlı tədbir keçirilmişdir.<br>31 yanvar 2013-cü il tarixdə “2 fevral – Azərbaycan Gəncləri Günü” münasibəti ilə Bakı Əyləncə Mərkəzində “N” saylı hərbi hissələdə xidmət edən əsgər və zabit heyəti üçün “Silahlı Qüvvələrimiz – qürur mənbəyimizdir” adlı mədəni-kütləvi tədbir, 31 yanvar 2014-cü il tarixdə “N” saylı hərbi hissələrdə “Əsgər bayramı” adlı mədəni-kütləvi tədbir, 18 mart 2014-cü il tarixdə Qaradağ rayonu ərazisində yerləşən Dövlət Sərhəd Xidmətinin və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissələrində xidmət edən əsgər və zabit heyəti ilə "Novruz bayramı" münasibəti ilə, 30 yanvar 2015-ci il tarixdə “2 Fevral – Azərbaycan Gəncləri Günü” münasibəti ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə mədəni-kütləvi tədbir keçirilmişdir.<br>16 oktyabr 2015-ci il tarixdə isə Abşeron rayonu ərazisində yerləşən Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində xidmət edən əsgər və zabit heyəti ilə “Dövlət Müstəqilliyi Günü” münasibəti ilə görüşlər keçirilmişdir. Tədbirlərdə xidmətdə fərqlənmiş hərbçilər nazirliyin "Fəxri Fərman"ları ilə təltif olunmuşdur. | |
| 6.2.5. | Ümumi təhsil müəssisələrində çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisinin təkmilləşdirilməsi, hərbi-idman oyunlarının keyfiyyəti və kütləviliyinin artırılması, onların keçirilməsi üçün şərait yaradılması | 2011-2015 | Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Sərhəd Xidməti, yerli icra hakimiyyətləri | **GİN:** 2011-2015-ci tədris illəri ərzində hərbi-idman oyunlarının səmərəliliyinin artırılması məqsədi ilə hər il “Şahin” və “Cəsurlar” hərbi-idman oyunlarının əsasnamələri yenidən işlənmiş və müvafiq təkmilləşdirmə işi aparılmaqla təsdiq edilmişdir.<br>Hər il 9 zona üzrə keçirilən oyunların məktəbdaxili-seçmə, rayon (şəhər), zona birinciliklərə keçirilmiş, final yarışları isə Cəmşid Naxçıvanski adına hərbi liseydə təşkil edilmişdir. Final yarışın iştirakçı komandaları “Fəxri Xiyaban”da ümummilli lider Heydər Əliyevin məzarını və “Şəhidlər Xiyabanı”nı ziyarət etmiş, yarışa hazırlıq məqsədi ilə təşkil edilən müxtəlif tədbirlərdə iştirak etmişlər. Final yarışlarında komandaların yerləri müəyyənləşdirilmiş, qaliblər və ayrı-ayrı mərhələlərdə fərqlənənlər oyunun təşkilatçıları tərəfindən mükafatlandırılmlışdır.<br>Komandalarda nizamın artırılması məqsədilə Əsasnaməyə uyğun | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | olaraq 2012-ci ildə komandalar üçün xüsusi geyimlər hazırlanmış, 2013-cü ildə isə çadırlar alınaraq yerli gənclər və idman idarələrinə paylanmışdır.<br>2014-2015-ci tədris ilindən başlayaraq, hər iki oyunun qaydaları əsasında yeni “Şahin” hərbi-idman oyununun Əsasnaməsi təsdiq edilmişdir.<br>Ötən dövr ərzində Dövlət Sərhəd Xidmətinin təşəbbüsü ilə keçirilən “Sərhəd” hərbi-idman oyununun və Fövqəladə Hallar Nazirliyinin təşəbbüsü ilə keçirilən “Gənc xilasedici və yanğınsöndürən” yarışının, həmçinin “Gənc xilasedici” beynəlxalq yarışının təşkili üçün zəruri təşkilati işlər aparılmışdır. | |
| 6.2.6. | Gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin aktual məsələləri üzrə müşavirələrin, konfransların, dəyirmi masaların, mədəni-kütləvi və digər tədbirlərin, telelayihələrin həyata keçirilməsi, vətənpərvərlik mövzusunda animasiya və cizgi filmlərinin istehsal olunması | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Müdafiə Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Milli Televiziya və Radio Şurası, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti, yerli icra hakimiyyətləri | **GİN:** 30 sentyabr 2011-ci il tarixdə Xaçmaz rayonunda “Vətən sərhəddən başlayır” adlı mədəni-kütləvi tədbir keçirilmişdir.<br>7-9 fevral 2012-ci il tarixlərdə respublika üzrə fəaliyyət göstərən Gənclərin Vətənpərvərlik Tərbiyəsi Klublarının rəhbərləri üçün təlim kursu keçirilmişdir.<br>2011-2015-ci illər ərzində hər il fevral ayında Bakı şəhərində “26 fevral-Xocalı faciəsi”nə həsr olunmuş ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Mahir nişançı" güllə atıcılığı üzrə turnir keçirilmişdir.<br>18 yanvar 2013-cü il və 17 yanvar 2014-cü il tarixlərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında “20 Yanvar-xalqımızın qəhrəmanlıq salnaməsidir” mövzusunda toplantı və “20 Yanvar hadisələrinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu” mövzusunda konfrans, 19 yanvar 2015-ci il tarixdə isə “Park inn” otelində “20 Yanvar hadisələrinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu” mövzusunda toplantı keçirilmişdir.<br>Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (AMOP) sədri xanım Leyla Əliyevanın təşəbbüsü ilə Rusiyanın Gənclərlə iş üzrə Federal Agentliyi, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (AMOP) və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə 6 may 2013-cü il tarixdən başlayaraq “Bizim ümumi qələbəmiz” adlı layihə çərçivəsində Sankt-Peterburq-Bakı-Moskva marşrutu üzrə keçirilən “Qələbə yolları ilə” adlı beynəlxalq avtoyürüş iştirakçıları 5-11 iyun 2013-cü il tarixlərdə Azərbaycan Respublikasında qəbul edilmişdir.<br>2013 və 2014-cü illərdə may ayının 27-də “28 may–Respublika Günü” münasibəti ilə N.Nərimanov rayonu ərazisində yerləşən Parkda “Azərbaycan gəncliyi və dövlət müstəqilliyimiz” adlı mədəni-kütləvi tədbirlər keçirilmişdir.<br>AzTV ilə birgə 2011-2015-ci illərdə “Mən Azərbaycanlıyam” adlı Milli Bilik Yarışması telelayihəsi həyata keçirilmişdir. Hər il yarışmanın növbəti mövsümünün qaliblərinin mükafatlandırılması mərasimləri təşkil olunmuşdur. | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | AzTV ilə birgə 2013-cü ilin avqust-oktyabr aylarında “Vətən sağ olsun - 2” adlı telelayihə həyata keçirilmişdir.<br>AzTV ilə birgə 2012-2015-ci illərdə “Müasir Azərbaycan Gənci (MAG)” adlı telelayihə həyata keçirilmişdir. | |
| 6.2.7. | Azərbaycan dili, tarixi, mədəniyyəti və incəsənətinin təbliğinə xidmət edən intellektual oyunların, müsabiqələrin, olimpiadaların və festivalların keçirilməsi | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | **GİN:** 2011-2014-cü illərdə Azərbaycanı tərənnüm edən mahnıların təbliğ edilməsi məqsədi ilə “Hünər” Vətənpərvərlik mahnıları festivalları keçirilmişdir.<br>2012-2013-ci illərdə uşaq və yeniyetmələr arasında "Xəmsə" Milli İntellektual oyunu üzrə II, III Azərbaycan Çempionatları keçirilmişdir. Hər il Çempionatlarda 2000-dək yeniyetmə iştirak etmişdir.<br>2012-2014-ci illərdə gənclər arasında "Xəmsə" Milli İntellektual oyunu üzrə V, VI, VII Azərbaycan Çempionatı keçirilmişdir. Hər il Çempionatlarda 3000-dək gənc iştirak etmişdir.<br>2012-2015-ci illərdə tarixlərdə İntellektual oyunlar üzrə "Xəzər kuboku" I, II, III və IV Beynəlxalq turnirləri həyata keçirilmişdir. Turnirlərdə 2012-ci ildə 8 ölkədən 42, 2013-cü ildə 10 ölkədən 60, 2014-cü ildə 9 ölkədən 53, 2015-ci ildə 9 ölkədən 58 komanda yarışmışdır.<br>9 may 2012-ci il tarixdə "Nə? Harada? Nə zaman?" İntellektual oyunu üzrə Azərbaycan Çempionatı keçirilmişdir.<br>13-29 fevral 2012-ci il tarixdə gənclər arasında “Azərbaycan - doğma Vətənim” mövzusunda “Breyn-rinq” intellektual oyunu üzrə respublika yarışı keçirilmişdir.<br>23 aprel 2012-ci il tarixdə Azərbaycan Respublikasında təhsil alan əcnəbi tələbələr arasında Azərbaycan tarixi və coğrafiyası üzrə I Respublika intellektual olimpiadası keçirilmişdir.<br>19 may 2013-cü il tarixdə "Nə? Harada? Nə zaman?" İntellektual oyunu üzrə rus dilində IX Azərbaycan Çempionatı keçirilmişdir.<br>20-23 avqust 2013-cü il tarixlərdə gənclər arasında "Xəmsə" Milli intellektual oyunu üzrə rus dilində Azərbaycan Çempionatı keçirilmişdir. Çempionatda 90 nəfər iştirak etmişdir.<br>15 avqust - 15 oktyabr 2013-cü ildə “Gənclərin Dostluq Şəbəkəsi” İctimai Birliyinin “Azərbaycanın təqdimat portalı” adlı layihəsinin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir.<br>27-30 avqust 2013-cü il tarixdə Zaqatala rayonunda Şəki-Zaqatala zonası üzrə, 27-28 iyun 2014-cü il tarixdə isə Quba rayonunda Quba-Xaçmaz zonası üzrə “Gənclərin Folklor Festivalı" keçirilmişdir.<br>5-9 dekabr 2013-cü il tarixlərdə "Xəmsə" Milli İntellektual oyunu üzrə I Dünya Çempionatı keçirilmişdir. Çempionatda 13 ölkədən 16 komanda iştirak | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | etmişdir.<br>01 aprel - 10 iyun 2014 tarixlərdə gənclər, o cümlədən xüsusi qayğıya ehtiyacı olan gənclər arasında "İçərişəhər - yaşayan tarix. Keçmişimiz gələcəyimizin təqdimatında" adlı layihə həyata keçirilmişdir. Layihə çərçivəsində rəsm müsabiqəsi, konfrans və festival təşkil edilmişdir.<br>21-24 aprel 2014-cü il tarixdə "Fairmont" otelində Azərbaycan, Belarus, Qazaxıstan, Qırğız, Tacikistan və Moldova Respublikalarından olan gənc ifaçıların iştirakı ilə "Hünər" (Отвага) beynəlxalq vətənpərvərlik mahnıları festival-müsabiqəsi keçirilmişdir.<br>2 may 2014-cü il tarixdə Şəki şəhərində Ali təhsil müəssisələrinin tələbələrinin iştirakı ilə ümummilli lider Heydər Əliyevin 91-ci ildönümünə həsr edilmiş "Tarixin canlı səhifələri" adlı Gənclər Festivalı keçirilmişdir.<br>2014-cü ilin 26-27 may tarixlərində "Mənim Azərbaycanım" adlı Festival keçirilmişdir.<br>2014-cü ilin iyul–oktyabr ayları ərzində VI Beynəlxalq Uşaq Muğam Festivalı layihəsi həyata keçirilmişdir. Festivala 10 ölkədən - İran, İraq, Misir, Əfqanıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Qazaxıstan, Türkiyədən 80 nəfər iştirakçı qatılmışlar.<br>12 avqust - 30 oktyabr 2014-cü il tarixlərdə "Bakı Gənclər Klubu" İctimai Birliyinin "Tariximizi öyrənək, irsimizi qoruyaq" adlı layihəsinin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir. Layihə iştirakçıları yay düşərgələrində də iştirak etmişlər.<br>23 avqust 2014-cü il tarixdə Bakı şəhəri Suraxanı rayonu ərazisində "Atəşgah Məbədi" Dövlət Tarixi-Memarlıq Qoruğu ərazisində "Tarixin canlı səhifələri" adlı II Gənclər Festivalı keçirilmişdir.<br>13 mart 2015-ci il tarixdə Suraxanı rayonunda yerləşən "Atəşgah Məbədi" Dövlət Tarixi-Memarlıq Qoruğu ərazisində "Mədəni irs" Gənclər Festivalı keçirilmişdir<br>02 may 2015-ci il tarixdə Müdafiə Nazirliyi ilə birgə Lənkəran rayonunda faşizm üzərində Qələbənin 70 illiyinə həsr olunmuş ali təhsil müəssisələrinin tələbələrinin iştirakı ilə tarixi rekonstruksiya üslubunda "Tarixin canlı səhifələri" adlı III Gənclər Festivalı keçirilmişdir. | |
| 6.2.8. | "Vətəni tanı" ümumrespublika intellektual interaktiv oyunlarının keçirilməsi | | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Rabitə və | **GİN:** 2011-2012-ci illərdə Azərbaycan Respublikasının Gənclər Təşkilatları Milli Şurası ilə birgə respublika üzrə 85 rayon və şəhərdə 14-18 yaşlı gənclər arasında "Vətəni tanı" Ümumrespublika kampaniyası keçirilmişdir. Kampaniya üçün xüsusi ekspertlər tərəfindən hazırlanmış Azərbaycan Respublikasının xəritəsinin (inzibati ərazi vahidlərinə bölünməklə) masaüstü keçməcə (estafet) oyun və kompüter proqramı variantları istehsal edilmişdir. | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | İnformasiya Texnologiyaları Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası | | |
| 6.2.9. | Gənclərdə dövlət rəmzlərinə hörmət hissinin güclən-dirilməsi | Mütəmadi | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | **GİN:** 4 noyabr 2011-ci il tarixdə Bakı şəhərində “9 Noyabr-Dövlət Bayrağı günü” münasibəti ilə “Bayraq Festivalı” keçirilmişdir.<br>7 noyabr 2012-ci il tarixdə “İkinci Bayraq Festivalı” keçirilmişdir.<br>Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ilə birgə 5 noyabr 2013-cü il tarixdə "9 noyabr-Dövlət Bayragı günü" münasibəti ilə "Yallı gedək - Bayrağımızı təbliğ edək" adlı layihə həyata keçirilmişdir. Dövlət Bayraq Meydanında 6000 nəfər gəncin iştirakı ilə keçirilənlayıhə "Euronews" kanalında işıqlandırılmışdır.<br>12 noyabr 2014-cü il tarixdə Müdafiə, Fövqəladə Hallar, Daxili İşlər nazirliklərinin və Dövlət Sərhəd Xidmətinin “N” saylı hərbi hissələrində xidmət edən əsgər və zabit heyəti üçün “9 noyabr - Dövlət Bayrağı günü” münasibəti ilə “Bayrağımız qürur mənbəyimizdir" adlı mədəni-kütləvi tədbir keçirilmişdir. | Tam icra olunub |
| 6.2.10 | Yeniyetmə və gənclərin hərbi xidmətə həvəsləndirilməsi və ordu sıralarına yolasalma mərasimlərinin təşkili məqsədi ilə mədəni-kütləvi tədbirlərin keçirilməsi | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, yerli icra hakimiyyətləri | **GİN:** 2011-2014-cü illər ərzində aprel və oktyabr aylarında respublikanın müxtəlif rayon və şəhərlərində gənclərin hərbi xidmətə yolasalma dövründə çağırışyaşlı gənclərin iştirakı ilə mədəni-kütləvi tədbirllər təşkil edilmişdir.<br>Nazirliyin maliyyə dəstəyi ilə “Gələcəyə Doğru Gənclərin İnkişafı” İctimai Birliyinin “Hərbi xidmətə hazırlaşan gənclər arasında maarifləndirici və hərbi-vətənpərvərlik tərbiyəsi işinə dəstək məqsədi ilə xüsusi tədbirlərin keçirilməsi” adlı layihəsi həyata keçirilmişdir.<br>Gənclərin hərbi xidmətə həvəsləndirilməsi məqsədi ilə 2014-cü ilin aprel ayının 3-də Ağstafa, 4-də Qazax, 7-də Siyəzən və Şabran rayonlarında mədəni-kütləvi və təbliğat xarakterli tədbirlər keçirilmişdir. Tədbir iştirakçılarına nazirlik tərəfindən hazırlanmış tövsiyə-yaddaş kitabçaları paylanmışdır. | Tam icra olunub |
| 6.2.11 | Azərbaycan tarixini əks etdirən kompyuter oyunlarının hazırlanması | 2012-2015 | Gənclər və İdman Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, | **GİN:** 2012-ci ildə "İşğal altında - Şuşa" adlı kompyuter oyunu hazırlanmış, 23 iyun 2012-ci il tarixdə oyunun təqdimat mərasimi keçirilmişdir.<br>2013-cü ildə “İşğal altında - Ağdam” adlı kompyuter oyunu hazırlanmış,7 oktyabr 2013-cü il tarixdə oyunun təqdimat mərasimi keçirilmişdir. Hər iki kompyuter oyunu gənc İT proqramçıları tərəfindən istehsal edilmişdir. İT | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | Azərbaycan Milli Elmlər Akademiyası | oyunları Bakutel-2013 sərgisində nümayış edilmişdir.<br>2013-cü ildə Azərbaycan tarixinin müxtəlif hərb dövrlərinin yeniyetmə və gənclər arasında öyrənilməsinə virtual imkanların yaradılması məqsədilə "Odlar yurdu" kompyuter oyunu hazırlanmışdır. Macəra janrında olan "Sonuncu dalan" kompyuter oyunu layihəsinin I mərhələsi həyata keçirilmişdir. | |
| 6.2.12 | Vətənpərvərlik mövzusunda maarifləndirici və təbliğat xarakterli əyani vəsaitlərin və təşviqat materiallarının hazırlanması | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, yerli icra hakimiyyətləri | **GİN:** 5 noyabr 2013-cü il tarixdə "9 noyabr - Dövlət Bayrağı günü" münasibəti ilə "Yallı gedək - Bayrağımızı təbliğ edək" adlı layihə çərçivəsində dövlət rəmzlərini əks etdirən təbliğat xarakterli əyani vəsaitlər hazırlanmışdır.<br>2013-cü ildə Bakı şəhərinin 360 dərəcəlik panoramik görüntüsü - virtual tur hazırlanmışdır.<br>01 avqust 2013-cü il - 31 yanvar 2014-cü il tarixlərdə "Azərbaycan Könüllülər" İctimai Birliyinin "Qarabağ 99 sualda" adlı layihəsinin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir.<br>GİN maliyyə dəstəyi ilə "İlham Əliyev və Azərbaycan gəncliyi" adlı kitab çap etdirilmişdir.<br>2013-cü ildə Gənclər və İdman Nazirliyi tərəfindən Azərbaycanda keçirilən gənclərlə bağlı beynəlxalq tədbirlərdə və xarici ölkələrdə keçirilən tədbirlərdə, həmçinin rayon (şəhər) gənclər və idman idarələrinə paylamaq məqsədilə 1500 ədəd milli ipək yaylıqlar, 1300 ədəd Azərbaycan dövlətlərinin tarixi adlarını əks etdirən masaüstü ləvazimat və 1300 ədəd "Azərbaycan naxışlı" flaş-kartlar hazırlanmışdır. | Tam icra olunub |
| **6.3.** | **Gənclərin intellektual və yaradıcılıq potensialının inkişafı** | | | | |
| 6.3.1. | İstedadlı gənclər və gənc alimlər barəsində məlumat bankının yaradılması | 2011-2012 | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin | **GİN:** İstedadlı gənclər və gənc alimlər barədə məlumat bankı yaradılmış və 2 iyun 2014-cü il tarixdə Azərbaycan gənclərinin VII Forumu çərçivəsində təqdimatı keçirilmişdir. Məlumat bankı "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının rəsmi internet səhifəsində (www.gencler2011-2015.az) yerləşdirilmişdir.<br>Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən gənc alimlər haqqında məlumat bazası hazırlanmışdır. | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | İnkişafı Fondu, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, Azərbaycan Milli Elmlər Akademiyası | | |
| 6.3.3. | Regionlarda gənclərin intellektual klublarının yaradılması | 2012-2015 | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, yerli icra hakimiyyətləri | **GİN:** Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Lənkəran şəhərlərində, Balakən, Beyləqan, Yevlax, Göygöl, Qusar, Goranboy, İsmayıllı, Quba, Oğuz, Qax, Ağcabədi rayonlarında "Xəmsə" İntellektual Oyun Klubları yaradılmışdır. | Tam icra olunub |
| 6.3.4. | İstedadlı və yaradıcı gənclərin II respublika toplantısının keçirilməsi | 2012 | Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | **GİN:** 26-28 noyabr 2012-ci il tarixlərdə İstedadlı və yaradıcı gənclərin II Respublika Toplantısı keçirilmişdir. Toplantı çərçivəsində bir həftə ərzində keçirilən tədbirlərdə respublikanın bütün şəhər və rayonlarından olmaq şərti ilə ümumilikdə 3000-dən çox gənc iştirak etmişdir.<br>26 noyabr 2012-ci il tarixdə "Gənc istedad 2012" təsviri sənət müsabiqəsinin yekun sərgisi və qaliblərin mükafatlandırma mərasimi keçirilmişdir.<br>27 noyabr 2012-ci il tarixdə "Buta Palace"da yaradıcı gənclərin iştirakı ilə İstedadlı və yaradıcı gənclərin II Respublika Toplantısının Qala konserti keçirilmişdir.<br>28-30 noyabr 20-12-ci il tarixlərdə "Start" Beynəlxalq Film Festivalı keçirilmişdir.<br>28-29 noyabr 2012-ci il tarixlərdə gənc ifaçıların yaradıcılıq axşamı keçirilmişdir.<br>29 noyabr 2012-ci il tarixdə gənc modelyer-dizaynerlərin "Art fashion" müsabiqəsinin yekunlarına həsr ounmuş moda nümayişi və qaliblərin mükafatlandırma mərasimi keçirilmişdir.<br>İstedadlı və yaradıcı gənclərin II Respublika Toplantısının keçirilməsi ilə bağlı müxtəlif yaradıcılıq sahələrini əks etdirən videofilmlər hazırlanmışdır.<br>Bütövlükdə Toplantı çərçivəsində 30-dan artıq konfrans, dəyirmi masa, ustad dərsi, tamaşa, konsert, sərgi, moda nümayişı, yaradıcılıq gecəsi, diskussiyalar keçirilmişdir.<br>Tədbirlə bağlı interaktiv sayt hazırlanmışdır. | Tam icra olunub |
| 6.3.5. | Beynəlxalq və respublika səviyyəli olimpiada, festival, müsabiqə və | Hər il | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və | **GİN:** 2011-ci ilin yekunlarına görə 22 yaradıcı gənc, 2012-ci ilin yekunlarına görə 21 yaradıcı gənc, 5 gənclərin qeyri-hökümət təşkilatı, 5 tələbə gənclər təşkilatı, 2013-cü ilin yekunlarına görə 25 yaradıcı gənc, 6 gənclərin qeyri-hökümət təşkilatı, 5 tələbə gənclər təşkilatı, 2014-cü ilin yekunlarına görə 17 | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | yarışlarda xüsusi nailiyyətlər əldə etmiş gənclərin mükafatlandırılması | | Turizm Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | yaradıcı gənc, gənclərin 9 qeyri-hökumət təşkilatı və 4 tələbə gənclər təşkilatı mükafatlandırılmışdır.<br>Hesabat dövründə gənclərin iştirakı ilə keçirilən müxtəlif festival, müsabiqə və olimpiadaların qalibləri Nazirlik tərəfindən mükafatlandırılmışdır.<br>29-31 yanvar 2014-cü il tarixlərdə Ramana, Masazır və Müşviqabadda məcburi köçkünlər üçün yeni salınmış qəsəbələrdə 2 fevral-Azərbaycan gəncləri günü ilə əlaqədar bayram tədbirləri keçirilmişdir. Tədbirdə işğal altında olan rayonların gəncləri arasında 2013-cü ildə fərqlənən 15 gəncə nazirliyin diplomu və qiymətli hədiyyələr təqdim edilmişdir. | |
| 6.3.6. | "İstedadların hazırlığı laboratoriyası"nın təşkili və fəaliyyətinin təmin edilməsi | 2012-2015 | | **GİN:** 2013-cü ildən başlayaraq hər il "İstedadların hazırlığı laboratoriyası" Respublika Olimpiadası layihəsi keçirilib. 2013-2015-ci illərdə respublika üzrə keçirilmiş I, II və III olimpiadada 5 mindən artıq yeniyetmə on-line olimpiadalarında, 900-dək gənc yarımfinal və final yarışmasında iştirak etmişdir.<br>"İstedadların hazırlığı laboratoriyası"nın www.istedad.az saytı yaradılmışdır. Olimpiada riyaziyyat, fizika, kimya üzrə 3 onlayn və Bakıda təşkil olunan əyani yarımfinal və final turdan ibarətdir. Finalın qalibləri qiymətli hədiyyələrlə mükafatlandırmışlar (cəmi 89 nəfər). Layihə çərçivəsində riyaziyyat, fizika və kimya üzrə yeniyetmələr üçün olimpiadaya hazırlıq məqsədilə alimlər tərəfindən metodiki vəsaitlər hazırlanmış və paylanmışdır, diatan video-dərslər saytda yerləşdirilimiş, tətil müddətində "elmi məktəblər" təşkil edilmişdir. | Tam icra olunub |
| 6.3.7. | Müasir peşələr, onlara tələbat və peşə seçiminə dair interaktiv informasiya resursunun, gənclərin peşəyönümü üzrə səyyar və distant məlumat-məsləhət xidmətlərinin yaradılması | 2012-2013 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, aidiyyəti dövlət | **GİN:** "İstedadların hazırlığı laboratoriyası" layihəsi çərçivəsində 2 mobil "Özünü sına" modulu hazırlanmışdır. Modullar 2-5 dekabr 2013-cü il tarixlərdə "Bakutel" 19-cu Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi və konfransı çərçivəsində "Bakı Expo Mərkəzi"ndə Gənclər və İdman Nazirliyinin stendində nümayiş etdirilmişdir. 2013-2015-ci illərdə "İstedadların hazırlığı laborotoriyası" Respublika Olimpiadalarının final yarışlarında "Özünü sına" modulu istifadə edilmişdir.<br>15-16 fevral 2012-ci il tarixdə "Gənclərə sosial xidmət göstərən müəssisələrin beynəlxalq laboratoriyası" keçirilmişdir. Tədbirdə MDB-nin 7 ölkəsindən 20 nəfər, ümumilikdə 60 nəfər nümayəndə iştirak etmiş, MDB məkanında sosial xidmət müəssisələrinin peşəyönümü ilə bağlı işin təşkili müzakirə edilmişdir.<br>23 aprel -1 iyun 2012-ci il tarixlərdə 200 nəfər məcburi köçkün, sağlamlıq imkanları məhdud olan və internat məktəblərində təhsil alan yeniyetmə və gənclər üçün kompyuter kursları təşkil edilmişdir. Kurslar | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | qurumları | zamanı gənclərə ofis və dizayn proqramları öyrədilmişdir.<br>2012-ci ilin may-iyun aylarında gənclərin kompyuter biliklərinin artırılması məqsədilə respublikanın 43 rayon və şəhərində maarifləndirmə kursları təşkil edilmişdir.<br>2012-ci ilin iyul-avqust ayları ərzində GİN tərəfindən təşkil edilmiş yay düşərgələri çərçivəsində 800 nəfər yeniyetmə və gənc üçün kompyuter kursları təşkil edilmişdir.<br>Nazirlik tərəfindən yaradılmış Gənclər Evlərində "Peşə yönümü məsləhət xidmət" otaqları tərtib və təchiz edilmişdir. Növbəti mərhələdə onların fəaliyyətinə mütəmadi dəstək göstəriləcəkdir. | |
| 6.3.8. | Azərbaycanın "online fikir bankı"nın yaradılması | 2012-2013 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | **GİN:** 2013-2014-cü illərdə Azərbaycanın "Online fikir bankı" layihəsi həyata keçirilmişdir. 4 dekabr 2013-cü il tarixdə "Bakutel" XIX Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi çərçivəsində Azərbaycanın "Online fikir bankı" layihəsinin təqdimatı keçirilmişdir. Layihənin www.fikirbanki.az veb saytı fəaliyyət göstərir. Sayt sosial xidmətlər, iqtisadiyyat, təhsil, milli mədəni irs, turizm, mədəniyyət, əyləncə, nəqliyyat, media, rabitə və telekommunikasiya, tibb və sağlamlıq, ətraf mühit kimi katoqeriyalar üzrə fikir və ideyaları qəbul edir. Hər ay fikir və ideya müəlliflərindən biri "Ayın qalibi" seçilir. | Tam icra olunub |
| 6.3.9. | Mədəniyyət və incəsənət sahəsində gənclərin yaradıcılıq nailiyyətlərinin mübadiləsi, yay məktəbi, ustad dərsləri, sənətə baxış və digər tədbirlərin təşkili | 2011-2015 | Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi | **GİN:** 2 fevral – Azərbaycan gəncləri günü münasibəti ilə 31 yanvar 2012-ci il tarixdə "Müasir yaradıcılıq axşamı" adlı gənc rəssamların və modelyerlərin əl işlərindən ibarət sərgi keçirilmişdir.<br>Azərbaycan Gənclər İttifaqı ilə birgə 11 mart 2012-ci il tarixdə Bakı şəhərində Breyk dance üzrə beynəlxalq çempionat keçirilmişdir.<br>4-18 mart 2012-ci il tarixlərdə Bakı şəhərində gənc kinematoqrafçılar üçün türk kinoprodüser Zeynəb Ozbatur Atakanın ustad dərsləri təşkil edilmişdir.<br>"XXI əsrdə Azərbaycan və müasir incəsənət" adlı layihə həyata keçirilmişdir.<br>"İncəsənət" Teatr Studiyasının "Oğlum oğul olsa..." adlı tamaşası hazırlanmışdır.<br>27 may 2012-ci il tarixlərdə Yunanıstan Respublikasının Afina şəhərində 28 may - Respublika gününün qeyd olunması məqsədilə istedadlı və yaradıcı gənclərin iştirakı ilə konsert proqramı təşkil edilmişdir.<br>12 avqust 2012-ci il tarixdə "Bakı Caz Mərkəzi"ndə 12 avqust – Beynəlxalq Gənclər Cününə həsr olunmuş mədəni-əyləncəli tədbir keçirilmişdir.<br>2012-2014-cü illərdə "Tələbə baharı" Tələbələrin VI, VII və VIII | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | Ümumrespublika yaradıcılıq festivalları keçirilmişdir. 2012-ci ildə 1000-dək, 2013 və 2014-cü illərdə 1200-dək tələbə iştirak etmişdir.<br>2012-2014-cü illərdə "Univiziya" tələbələrin I, II, III Beynəlxalq mahnı müsabiqələri keçirilmişdir.<br>2013-2014-cü illərdə "Univiziya" tələbələrin I və II Beynəlxalq mahnı müsabiqələri keçirilmişdir. 2013-cü ildə 20 ölkədən 64, 2014-cü ildə 21 ölkədən 89 iştirakçı qatılmışdır.<br>2012-2015-ci illərdə Kompyuter oyunları üzrə VII, VIII, IX Azərbaycan Milli Çempionatları keçirilmişdir. Hər il Çempionatlarda 2500-dək gənc iştirak etmişdir.<br>2012-2014-cü illərdə VII, VIII, IX Bakı Beynəlxalq Müəllif Mahnıları Festivalı keçirilmişdir. 2012-ci ildə 8 ölkədən 70, 2013-cü ildə 9 ölkədən 95, 2014-cü ildə 12 ölkədən 100 iştirakçı qatılmışdır.<br>2012-2015-ci illərdə IV, V, VI,VII Beynəlxalq Uşaq Muğam Festivalı keçirilmişdir. 2012-ci ildə 8 ölkədən 28, 2013-cü ildə 10 ölkədən 30, 2014-cü ildə 10 ölkədən 80, 2015-ci ildə 9 ölkədən 60 iştirakçı qatılmışdır.<br>2012-2015-ci illərdə "İslam Dünyası gənclərinin (20 yaşadək) klassik musiqi ifaçılarının I, II, III,IV müsabiqələri keçirilmişdir. 2012-ci Idə 8 ölkədən 40, 2013-cü ildə 9 ölkədən 100, 2014-cü ildə 10 ölkədən 47, 2015-ci ildə 8 ölkədən 75 iştirakçı qatılmışdır.<br>2013-2015-ci illərdə "Art təhsil" adlı layihə həyata keçirilmişdir.<br>22-26 iyul 2013-cü il tarixlərdə ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş Türkdilli dövlətlərin gənclərinin Bakı Beynəlxalq Yaradıcılıq Festivalı keçirilmişdir. Festivala 5 ölkədən 74 iştirakçı qatılmışdır.<br>21-24 oktyabr 2013-cü il tarixlərdə Azərbaycan Respublikası Prezidenti kuboku uğrunda ŞHK komandaları arasında yarış həyata keçirilmişdir.<br>15 iyul -15 noyabr 2013-cü il tarixlərdə respublikanın 60 rayon və şəhərində sferik mobil kinoteatrların qurulması və maarifləndirici filmlərin nümayiş olunması təmin edilmişdir.<br>10-14 sentyabr 2013-cü il tarixlərdə "Şərq nağılı" adlı əlilliyi olan gənclərin beynəlxalq yaradıcılıq Festivalı keçirilmişdir. Festivala 8 ölkədən 200-dək iştirakçı qatılmışdır.<br>3 dekabr 2013-cü il tarixdə Beynəlxalq Əlillər günü ilə bağlı sərgi təşkil edilmişdir.<br>2014-cü ilin mart-may aylarında Danimarka Krallığının Kopenhagen şəhərində keçirilən "Eurovision 2014" Beynəlxalq Mahnı Müsabiqəsində Azərbaycan Respublikasının iştirakı ilə bağlı təşkilati və təbliğat işləri aparılmışdır. | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | 14-16 aprel 2014-cü il tarixlərdə gənclər arasında "Mən Azərbaycanda yaşayıram!" adlı fotomüsabiqənin yekunlarına həsr edilmiş sərgi keçirilmişdir.<br>2014-cü ildə ŞHK üzrə Azərbaycan ŞHK Liqası çərçivəsində 4 oyun keçirilmişdir. 17-18 iyun 2014-cü il tarixlərdə Şəki şəhərində Gənc sənətkarlar arasında Dekorativ Tətbiqi Sənət Müsabiqəsinin yekun sərgisi keçirilmişdir. Sərgidə 100-dən çox müəllifin 150-yə yaxın əsəri nümayiş etdirilmişdir.<br>12-16 noyabr 2014-cü il tarixlərdə Bakı şəhərində Kompyuter oyunları üzrə 6-cı Dünya Çempionatı keçirilmişdir. Çempionatda 34 ölkədən 240 nəfər iştirakçı və rəsmi nümayəndə iştirak etmişdir.<br>2014-cü ilin fevral ayında "Art təhsil 2014" layihəsi çərçivəsində tədbirlər həyata keçirilmişdir.<br>12-15 mart 2014-cü il tarixlərdə Bakı şəhərində “Böyük İpək Yolu” Beynəlxalq Gənclər İttifaqına üzv olan ölkələrin gəncləri arasında “Gənc şairələrin II Beynəlxalq Forumu”nun həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir. Forumda Banqladeş, Gürcüstan, Yunanıstan, Macarıstan, Hindistan, İraq, İsrail, İordaniya, Kırğızıstan, Makedoniya, Moldova, Mərakeş, Pakistan, Rumuniya, Rusiya, Tacikistan, Tunis, Türkiyə, Ukrayna, Malaziya, Özbəkistandan olan 33, Azərbaycandan isə 8 gənc iştirak etmişdir.<br>14-16 aprel 2014-cü il tarixlərdə gənclər arasında "Mən Azərbaycanda yaşayıram!" adlı fotomüsabiqənin yekunlarına həsr edilmiş sərgi keçirilmişdir.<br>23-26 aprel 2014-cü il tarixlərdə keçirilən "İslam Dünyası Gənclərinin (20 yaşadək) klassik musiqi ifaçılarının 3-cü Beynəlxalq festival-müsabiqəsi" layihəsi həyata keçirilmişdir. Tədbirə Küveyt, Qırğızıstan, Qazaxstan, İndoneziya, Özbəkistan, Mərakeş, İran, Türkiyə, Rusiya Federasiyasının Başqırdıstan Respublikası və Azərbaycandan ümumilikdə 47 iştirakçı qatılmışdır.<br>Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən 01-10 aprel, 14-15 və 20-21 aprel 2014-cü il tarixlərdə “Univiziya” tələbələrin III mahnı və müsabiqələri keçirilmişdir.<br>30 may -3 iyun tarixində Quba rayonunda "Tələbə baharı" VIII Ümumrespublika tələbə yaradıcılıq Festivalının Qala konserti keçirilmişdir. Festivalda 15-ə yaxın ali təhsil müəssisəsindən 25 nəfər tələbə iştirak etmişdir.<br>17-18 iyun 2014-cü il tarixlərdə Şəki şəhərində Gənc sənətkarlar arasında Dekorativ Tətbiqi Sənət Müsabiqəsinin yekun sərgisi keçirilmişdir. | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | Sərgidə 100-dən çox müəllifin 150-yə yaxın əsəri nümayiş etdirilmişdir.<br>12-21 iyul 2014-cü il tarixlərdə X Bakı Beynəlxalq Müəllif Mahnıları Festivalı keçirilmişdir. Festivala 12 ölkədən 100 iştirakçı qatılmışdır.<br>İyul-avqust 2014-cü il tarixlərdə Kompyuter oyunları üzrə IX Azərbaycan Çempionatı həyata keçirilmişdir. Çempionatda 2500-ə yaxın gənc iştirak etmişdir.<br>12-16 noyabr 2014-cü il tarixlərdə Bakı şəhərində Kompyuter oyunları üzrə 6-cı Dünya Çempionatı keçirilmişdir. Çempionatda 34 ölkədən 240 nəfər iştirakçı və rəsmi nümayəndə iştirak etmişdir.<br>2014-cü ildə Azərbaycan ŞHK Liqasının 1/8, 1/4, yarımfinal və final oyunları keçirilmişdir. Oyunlarda Azərbaycan, Ukrayna, Rusiya Federasiyası, Qazaxıstan və Gürcüstandan olan komandalar yarışmışlar.<br>12-25 yanvar 2015-ci il tarixlərdə "Bakı Yığmasi" və "Çak Noriss" ŞHK komandaları "KİVİN-2015" XXVI Beynəlxalq festivalda iştirak etmək məqsədilə Rusiya Federasiyasının Soçi şəhərinə ezam olunmuşdular.<br>26 fevral-08 mart 2015-ci il tarixlərdə "Clavi Cologne Aachen" beynəlxalq musiqi müsabiqəsində iştirak etmək üçün Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbəsi T.Şıxıyev Almaniya Federativ Respublikasının Köln və Axen şəhərlərinə ezam olunmuşdur.<br>20 fevral-06 mart 2015-ci il tarixlərdə Rusiya Federasiyasının Moskva şəhərində keçirilən ŞHK Beynəlxalq İttifaqının Premyer Liqasının 1/8 mərhələsində iştirak etmək məqsədilə "Bakı Yığmasi" ŞHK komandası Moskva şəhərinə ezam olunmuşdur.<br>04-08 aprel 2015-ci il tarixlərdə Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərinə Karnegie Holda keçiriləcək "Woodwinds and Brass Competition 2014" musiqi yarışmasının qaliblərindən ibarət "Qala-konsert"də iştirak etmək üçün Azərbaycan Milli Konservatoriyasının tələbəsi Nicat Məsimov və konsertmeyster Nigar Nəcəfova ezam olunmuşlar. | |
| 6.3.10. | Gənclərlə bağlı daha dolğun məlumatların yayılması, müasir teleradio layihələrinin hazırlanması, internet resurslarının inkişafı | 2011-2013 | Gənclər və İdman Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Milli Televiziya və Radio Şurası | **GİN:** 2011-ci ildə online televiziya kanalı "Yurd.TV" ilə birgə gənclərlə bağlı "Fəxrimiz" və "Qəhrəmanlar" adlı televiziya layihələri hazırlanmışdır. Hər biri 20-30 dəqiqəlik olan televiziya layihələrinin 6 ay müddətində yayımlanmışdır.<br>Gənclər və idman siyasəti sahəsində həyata keçirilən tədbirlər və əldə olunmuş nailiyyətlər haqqında məlumatı oxucu kütləsinə təqdim etmək məqsədilə 2012-ci ilin hesabat toplusu (3 dildə) və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 avqust 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)"nın icrası ilə bağlı tədbirlər toplusu hazırlanmış və nəşr edilmişdir. | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | (MTRŞ), “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti (AzTV) | “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı və “Azərbaycanda gənclər siyasəti” adlı kitabçalar çap olunmuşdur.<br>2012-ci ildən GİN-nin dəstəyi ilə AzTV ilə birgə “MZ“ MMC tərəfindən “Müasir Azərbaycan Gənci” adlı televiziya layihəsi həyata keçirilir. Layihənin keçirilməsində əsas məqsəd “Müasir Azərbaycan Gənci”nin həyatını müxtəlif tərəflərdən işıqlandırmaq, onun maraqları, həyat tərzi, düşüncələri, istedad və bacarığı ilə tamaşaçıları tanış etməkdir.<br>2012-2014-cü illərdə gənclər və yenitemələr arasında Xəmsə Milli İntellektual Oyunu üzrə Azərbaycan Çempionatlarının televiziya layihələri hazırlanmış və İTV-də yayımlanmışdır.<br>2012-2014-cü illərdə "Böyük səhnə" gənc ifaçıların Milli Musiqi Televiziya Müsabiqələri keçirilmiş və ATV telekanalında yayımlanmışdır.<br>2013-cü ilin mart ayında "Eurovision 2013" Mahnı Müsabiqəsinin Azərbaycan Milli Seçim turlarının təşkili ilə əlaqədar telelayihə həyata keçirilmişdir. Azərbaycanı İsveç Krallığının Malmo şəhərində keçirilmiş "Eurovision 2013" Beynəlxalq Mahnı müsabiqəsində təmsil etmək üçün gənc müğənni Fərid Məmmədovun namizədliyi seçilmişdir.<br>2013-2014-cü illərdə "Fort Boyard" televiziya layihəsi hazırlanaraq ATV telekanalında yayımlanmışdır.<br>2013-2015-ci illərdə ildə 2 mövsüm olaraq “Breyn-ring” İntellektual oyunu üzrə Azərbaycan Çempionatlarının televiziya layihələri hazirlanaraq AzTV-də yayımlanmışdır.<br>2014-2015-ci illərdə “Breyn-ring” İntellektual oyunu üzrə "Azərbaycan Respublikası Prezidentinin Kuboku uğrunda Beynəlxalq turnir" televiziya layihəsi həyata keçirilmiş, AZTV-də yayımlanmışdır. Hər il turnirdə 11 ölkədən 12 komanda tərkibində 72 nəfər iştirak etmişdir.<br>GİN-nin təşəbbüsü ilə RİTN, TN və AzTV ilə birgə “Mən azərbaycanlıyam” milli intellektual bilik yarışması keçirilir.<br>Multimedia təsvirli DVD və kitab ("Explore Azerbaijan". "Azərbaycanı kəşf et", "Откройте для себя Азербайджан") hazırlanmışdır.<br>2015-ci ildə "Gülüş yığması" televiziya layihəsi hazırlanmış və "SPACE" telekanalında yayımlanmışdır.<br>Hesabat dövründə bir sıra internet saytların davamlı fəaliyyəti təmin edilmişdir: youthportal.az, gencler2011-2015.az, genclerpaytaxti.az, istedad.az, fikirbanki.az, konullu.az. | |
| 6.3.11 | İnternet jurnalistikası üzrə təlimlərin təşkili | 2011-2015 | Rabitə və İnformasiya Texnologiyaları | **GIN:** 4-7 və 11-14 oktyabr 2012-ci il tarixlərdə Bakı şəhərində Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ilə birgə respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbə-gənclər təşkilatlarının sədr və | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi | sədr müavinləri üçün "Yeni media: əlaqələrin qurulması, birgə fəaliyyət, informasiya mübadiləsi" mövzusunda təlim kursları keçirilmişdir.<br>"İrəli" İctimai Birliyi ilə birgə "Gənc bloqçular düşərgəsi" adlı layihə həyata keçirilmişdir. Layihənin həyata keçirilməsində məqsəd bloqlardan səmərəli istifadənin təşviq edilməsi, mövzu ilə bağlı təlimlərin və informasiya texnologiyaları üzrə ekspertlərlə görüşlərin keçirilməsi olmuşdur. Layihədə 50 gənc iştirak etmişdir.<br>2013-cü ildə "İRƏLİ" İctimai Birliyi ilə birgə "Gənclər üçün yay universiteti 2013" (100 nəfər), "Yeni Media Akademiya - 2013" (100 nəfər) və "Azərbaycan Gənc Bloqçular Forumu" (100 nəfər) adlı layihələr həyata keçirilmişdir.<br>01-19 mart 2014-cü il tarixlərdə "Tələbələr üçün internet jurnalistikası" mövzusunda peşəkar təlim kursları keçirilmişdir. | |
| **6.4.** | **Gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və məşğulluğun təmin edilməsi** | | | | |
| 6.4.1. | Gənclər üçün əmək yarmarkalarının təşkil edilməsi | 2012-2015 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi | **GİN:** 20 iyun 2012-ci il tarixdə, 17 may 2013-cü il tarixdə, 23 may 2014-cü il tarixdə və 28 noyabr 2015-ci il tarixdə Gənclər və İdman Nazirliyinin, Təhsil Nazirliyinin və Azərbaycan Dövlət İqtisad Universitetinin birgə təşkilatçılığı ilə "Məzun" əmək yarmarkaları keçirilmişdir. Hər il keçirilmiş əmək yarmarkalarında 80-dən çox şirkət, bank, təşkilat və dövlət qurumları iştirak etmiş və vakansiyaları haqqında məlumatlarını təqdim etmişdirlər. 5 il ərzində keçirilmiş yarmarkalarda 4500-dən çox iş yerləri haqqında məlumat təqdim edilmiş, 12000-dən çox gənc yarmarkalarda iştirak etmiş və 1800 nəfərdən artıq gənc daimi iş yerlərini tapmışdır. | Tam icra olunub |
| 6.4.2. | Gənclərin məşğulluğu və sahibkarlıq fəaliyyəti sahəsində inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi | 2011-2015 | Nazirlər Kabineti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi | **GİN:** 11-16 dekabr 2011-ci il tarixlərdə Bakı şəhərində "Biznes inkubatorların fəaliyyəti və gənclərin mobil sahibkarlığına dəstək: qazanılmış təcrübə və Azərbaycanda bu sahənin inkişaf perspektivləri" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfransda Almaniya, Polşa, Rumıniya, Bolqarıstan, Montoneqro, Ukrayna və Belarusiyanın təcrübəsi öyrənilmiş, biznes inkubatorların fəaliyyətinə dair təqdimatlar aparılmışdır.<br>Beynəlxalq Əmək Təşkilatının modul təlim proqramına uyğun olaraq 2012-ci ilin mart ayında 30 nəfər gəncə "Öz biznes ideyanı yarat, başla və inkişaf etdir" adlı təlim kursu keçirilmişdir.<br>2013-cü il ərzində 10 rayonda 5 peşə üzrə hər biri 1 ay olmaq şərti ilə 10 təcrübi treninq kurs keçirilmişdir, 750 gənc iştirak edib, sertifikatlar almışlar.<br>Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə "Gələcəyə Körpü" Gənclərin İctimai Birliyi "Gənclərin Məşğulluq Resurs Mərkəzi" adlı layihəsini | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | (2012-2014-cü illər ərzində) həyata keçirmişdir. Layihə üç komponentdən ibarət olmuşdur: mərkəzdə gənclərə 3-6 aylıq təcrübə proqramları təşkil etməklə gənclərə iş tapmaqda köməklik göstərilmiş, gənclərin sahibkarlıq bacarıqlarının inkişaf etdirmək üçün təlim və peşə-sənət kursları təşkil olunmuş və www.cvcenter.az internet saytı yaradılmışdır.<br>6-8 dekabr 2013-cü il tarixlərdə Türkiyənin İstanbul şəhərində "Böyük İpək Yolu" Beynəlxalq Gənclər İttifaqına üzv olan ölkələrin gəncləri arasında "İpək yolu ölkələrinin gənc sahibkarlar şəbəkəsi" forumu Gənclər və İdman Nazirliyinin dəsətəyi ilə keçirilmişdir. Forumda Banqladeş, Gürcüstan, Yunanıstan, Macarıstan, Hindistan, İraq, İsrail, İordaniya, Qırğızıstan, Makedoniya, Moldova, Mərakeş, Pakistan, Rumıniya, Rusiya, Tacikistan, Tunis, Türkiyə, Ukrayna, Malayziya, Özbəkistandan olan 33, Azərbaycandan isə 8 gənc iştirak etmişdir.<br>28-30 aprel 2013-cü il tarixdə "Mobil texnologilayarı üzrə dünya gənclər forumu" Bakı şəhərində keçirilmişdir. Beynəlxalq forumun keçirilməsində məqsəd – informasiya texnologiyaları sahəsində inkişaf etmiş xarici ölkələrin təcrübəsinin öyrənilməsi, mobil texnologiyaları vasitəsilə gənclərin iqtisadi fəallığının artırılması və sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi olmuşdur.<br>"MDB üzv dövlətlərinin Gənc sahibkarlarının konqresi"ndə iştirak etmək üçün bir qrup gənc sahibkar 7-13 iyun 2015-ci il tarixdə Rusiya Federasiyasının Altay vilayətinin Belokurixa şəhərinə ezam edilmişdir.<br>Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin, "The Coca-Cola Company" şirkətinin maliyyə dəstəyi ilə və "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin təşkilatçılığı ilə "Youth.İnc" layihəsi 2014-cü ilin fevral ayından həyata keçirilir. Layihənin əsas məqsədi – biznes inkubator vasitəsilə gənclərin sahibkarlıq fəaliyyətinin inkişaf etdirməkdir. Layihə bir neçə mərhələdən ibarətdir, 5000 yaxın gənc müxtəlif təlimlərdə iştirak edib və bir neçə biznes ideyanın startapları yaradılıb. 22 oktyabr 2015-ci il tarixdə "Youth.İnc" biznes inkubatorun rəsmi açılış mərasimi keçirilmişdir. | |
| 6.4.3. | Gənclər arasında sahibkarlığın inkişaf etdirilməsi, daimi yaşamaq üçün sərhədyanı və dağlıq ərazilərə köçən, fermer təsərrüfatı və digər sahibkarlıq fəaliyyəti ilə məşğul | 2012-2013 | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Vergilər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial | **GİN:** Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təkliflər hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17/17/PA-658-11 nömrəli, 02 avqust 2011-ci il tarixli tapşırığına əsasən razılaşdırmaq üçün Azərbaycan Respublikasının İqtisadi İnkişaf, Əmək və Əhalinin Sosial Müdafiəsi və Vergilər Nazirliklərinə göndərilmişdir. Həmin dövlət orqanlarının rəyləri nəzərə alınmaqla yenidən hazırlanmış təkliflər Nazirliyin 01/19-08-447 nömrəli, 19 oktyabr 2011-ci il tarixli məktubu ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir. | Qismən icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | olmaq istəyən gənclərə dəstək verilməsi ilə bağlı təkliflərin hazırlanması | | Müdafiəsi Nazirliyi | Təkliflər hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir (113/$R_2$-02/10 nömrəli, 14.05.14 tarixli məktub).<br>Əsas icraçılar qaldırılmış məsələnin kompleks həllini vacib bildikləri üçün tərəfimizdən hazırlanmış təklifləri həmin sənəddə nəzərə alınmasını bildirmişdirlər. | |
| 6.4.4. | Biznes fəaliyyətinə dair intellektual yarışların və kompyuter oyunlarının keçirilməsi, yeniyetmə və gənclər arasında sahibkarlıq fəaliyyətinin nəzəri və praktiki əsasları ilə bağlı olimpiadaların və müsabiqələrin təşkil edilməsi | 2011-2015 | Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Gənclər və İdman Nazirliyi | **GİN:** 8-14 dekabr 2011-ci il tarixdə “Gənc Sahibkarlar Məktəbi” layihəsi həyata keçirilmişdir. Layihənin keçirilməsində məqsəd – gənclərin biznes biliklərinin artırılması və sahibkarlıq fəaliyyətinə həvəsləndirilməsi olmuşdur. Layihədə iştirak edən 30 göncə biznes planların hazırlanması üzrə biliklər verilmişdir.<br>Gənclər və İdman Nazirliyinin dəstəyi ilə 25 iyun, 28 noyabr və 4 dekabr 2013-cü il tarixlərdə Azərbaycan Dövlət İqtisad Universitetində “Karyera günü” adlı tədbirlər keçirilmişdir. Tədbirlərdə 200 nəfərə yaxın tələbə və maqistr iştirak etmişdir. Tədbir iştirakçılarına iş müsahibəsinə gedərkən davranış qaydaları, CV hazırlamaq və karyera qurmaq imkanları haqqındaətraflı məlumat və məsləhətlər verilmişdir. “Uğurlu karyeraya doğru birinci addım” adlı broşür hazırlanaraq tədbir iştirakçılarına paylanılmışdır.<br>"SİFE və Enactus (Bizim sahibkarlıq fəaliyyətimiz)” beynəlxalq tələbə proqramı üzrə milli yarışlar hesabat dövrü ərzində hər il keçirilmişdir. Milli yarışlarda hər il orta hesabla 11 komanda iştirak etmiş və akademik tədris ili ərzində 30-dan çox layihələr icra olunmuşdur. 2011-2014-cü illərdə “Enactus” proqramına 1000 nəfərdən çox gənc qoşulmuş və 120-dən artıq layihə reallaşdırılmışdır. Qalib komandalar ölkəmizi Kuala-Lumpr, Vaşinqton, Kankun və Pekin şəhərlərində keçirilmiş dünya kuboku yarışlarında təmsil etmişdirlər. Komandalarımızın uğurlu göstəriciləri və təqdimatları əsasında Naxçıvan Dövlət Universiteti “Spirit of Enactus” kuboku ilə təltif edilmişdir. Milli yarışların təşkili ilə yanaşı ölkəmiz proqram üzrə bir sıra beynəlxalq tədbirlərin keçirilməsinə ev sahibliyi etmişdir. Belə ki, 2012-2013-cü illərdə BakıdaMDB ölkələrinin regional yarışı və forumu keçirilmişdir. | Tam icra olunub |
| 6.4.5. | Gənc sahibkarlar tərəfindən istehsal olunan məhsulların sərgilərinin keçirilməsi | 2012-2015 | İqtisadi İnkişaf Nazirliyi, Gənclər və İdman Nazirliyi | **GİN:** Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2014-cü ilin “Sənaye ili” elan edilməsi ilə əlaqədar Azərbaycan Dövlət İqtisad Universitetində keçirilmiş IX “Məzun 2014” yarmarkasında sənaye və istehsal məhsullarının sərgisi təşkil edilmişdir.<br>2011-2014-cü illər ərzində “Bizim sahibkarlıq fəaliyyətimiz (Enactus)” beynəlxalq proqram üzrə keçirilmiş milli yarışlarda iştirak etmiş komandaların biznes layihələrinin məhsulları və xidmətləri sərgilənmişdir.<br>5 iyun 2015-ci il tarixində Mingəçevir şəhərində İqtisadiyyat və Sənaye Nazirliyinin və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə “Gənclərin | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi” mövzusunda konfrans və gənc sahibkarlar tərəfindən istehsal olunan məhsulların sərgisi keçirilmişdir. | |
| 6.4.6. | İnternat və uşaq evlərində yaşayan gənclərin məşğulluğuna kömək göstərilməsi | 2012-2015 | Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | **GİN:** Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə “SOS Uşaq Kəndləri” Azərbaycan Assosiasiyası “Dövlət uşağa qayğı müəssisələrini tərk etməkdə olan və tərk etmiş gənclərin sonrakı həyatını tənzimləyən mexanizmlərinin yaradılması” layihəsini 2013-cü il ərzində həyata keçirmişdir. Layihənin həyata keçirilməsində məqsəd – qayğını tərk etməkdə olan və tərk etmiş gənclərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi və onların həyat bacarıqlarının inkişaf etdirilməsi üçün alternativ mərkəzlərin yaradılmasıdır.<br>“Azəri Gənclər Alyansı” İctimai Birliyinin 01 sentyabr-30 noyabr 2013-cü il tarixlərdə “Kimsəsiz deyilsən” adlı layihəsinin həyata keçrilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir. Ümumilikdə layihədə 600 nəfər iştirak etmişdir.<br>11 iyul - 30 sentyabr 2014-cü il tarixdə “Gənclərin məşğulluq vəziyyətinin yaxşılaşdırılması” layihəsi “Savadlı Cəmiyyət” Müasir Təhsilə Dəstək İctimai Birliyi ilə birgə keçirilmişdir. Layihənin həyata keçirilməsində məqsəd – internat və uşaq evlərində, eləcə də peşə təhsili müəssisələrində təhsil alan gənclərin həyat bacarıqlarının və praktiki biliklərinin artırılması, o cümlədən informasiya texnologiyalarının imkanlarından istifadə etməklə gənclərə peşə seçimində dəstəyin göstərilməs olmuşdur. Layihə çərçivəsində 300 nəfər yeniyetmə və gənc təlim kurslarına cəlb edilmişdir. | Tam icra olunub |
| **6.5. Gənclərin idarəetmədə və vətəndaş cəmiyyətinin inkişafında iştirakının artırılması** | | | | | |
| 6.5.3. | Azərbaycan Gənclərinin VII Forumunun keçirilməsi | 2014 | Gənclər və İdman Nazirliyi | **GİN:** 02-03 iyun 2014-cü il tarixlərdə Azərbaycan Gənclərinin VII Forumu keçirilmişdir. Forum çərçivəsində 5 bölmə üzrə müzakirələrdə respublikanın bütün rayon və şəhərlərindən seçilmiş 1900 nəfər nümayəndə iştirak etmişdir. | Tam icra olunub |
| 6.5.4. | Xarici ölkələrdə təhsil alan və işləyən gənclər haqqında məlumat bazasının yaradılması ilə bağlı təkliflərin hazırlanması | 2011 | Təhsil Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi | **TN və DİDK-**dən alınan hesabatlara əsasən:<br>**TN:** Xarici ölkələrdə dövlət hesabına təhsil alanlar haqqında lazımi statistik tələblərə cavab verən, müasir və təhlükəsiz baza yaradılmışdır.<br><br>**DİDK:** Xarici ölkələrdə yaşayan və təhsil alan azərbaycanlı gənclər tərəfindən təsis edilmiş diaspor təşkilatları haqqında (2012-2014-cü illər üzrə) məlumat hazırlanmışdır. | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6.5.5. | Hər il ölkənin bir rayon və ya şəhərinin “Gənclər Paytaxtı” elan edilməsi | 2012-2015 | Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyətləri | **GİN:** www.genclerpaytaxti.az saytı hazırlanmışdır. İnternet səsverməsi yolu ilə 2012-ci ilin “Gənclər Paytaxtı” Gəncə şəhəri, 2013-cü ildə Biləsuvar rayonu, 2014-cü ildə Quba rayonu və 2015-ci ildə isə İsmayıllı rayonu seçilmişdir. | Tam icra olunub |
| 6.5.7. | İlk dəfə səs verən gənc seçicilər arasında maarifləndirmə işinin təşkili | 2013-2015 | Gənclər və İdman Nazirliyi, Mərkəzi Seçki Komissiyası (MSK) | **GİN:** 2013-cü ildə keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində ilk dəfə səs verən gənclərin seçkilərdə fəal iştiraka təşviq edilməsi məqsədi ilə 5 video və səsli klip hazırlanmış, radio və televiziyalarda yayımlanmışdır.<br>2015-ci ildə Milli Məclisə keçirilmiş seçkilərdə ilk dəfə səs verən gənclərin fəal iştiraka təşviq edilməsi məqsədilə avqust – oktyabr aylarında bütün rayon və şəhərlərdə “Sənin səsin – sənin gələcəyin” devizi altında təlimlər, seminarlar, ğörüşlər təşkil edilmiş və müxtəlif maarifləndirci məhsullar paylanmışdır. Tədbirlərdə 5.000 gəncin iştrakı təmin edilmişdir.<br>2015-ci ildə Milli Məclisə keçirilmiş seçkilərdə gənclər təşkilatlarının daha fəal iştirakının təmin edilməsi məqsədilə 20 oktyabr 2015-ci il tarixdə Bakı şəhərində Mərkəzi Seçki Komissiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu ilə birgə “Parlament seçkilərində gənclərin iştirakı” mövzusunda konfrans keçirilmişdir.<br>Gənclər təşkilatlarının aşağıdakı layihələrinə dəstək göstərilmişdir.<br>• “Bizim Nəsil” Gənclərin Regional İnkişaf Assosiasiyası tərəfindən 2013-cü ildə keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində ilk dəfə səs verən gənclər üçün 2012-ci ilin dekbar – 2013-cü ilin noyabr dövründə “Sənin səsin sənin seçimin” adlı layihə həyata keçirilmişdir. Layihə nəticəsində 30 rayon və şəhərdə ilk dəfə səs verən 10.000 gənc üçün maarifləndirici seminarlar keçirilmiş və müxtəlif çap məhsulları paylanmışdır;<br>• “İRƏLİ” İctimai Birliyi tərəfindən 2013-cü ildə Azərbaycan Respublikası Prezidenti seçkilərində ilk dəfə səs verən gənclər üçün 27 sentyabr - 7 oktyabr 2013-cü il tarixlərdə “Seçki hüququ” adlı layihə həyata keçirilmişdir. Layihə nəticəsində www.sesver.az saytı yaradılmış, gəncləri seçkilərə çağıran video klip hazırlanmış və sosial şəbəkələrdə yayımlanmışdır. Facebook" sosial şəbəkəsində 650 min, "Twitter"də 125 min baxış sayı olmuş, "Youtube"da 140 min nəfər kampaniya çərçivəsində hazırlanan materialları izləmişlər;<br>• "Qəbələ Regional Gənclərin Resurs Mərkəzi" İctimai Birliyi tərəfindən 01 avqust – 31 oktyabr 2014-cü il tarixlərdə “Regionlarda ilk dəfə səs | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | verən gənclərin bələdiyyə seçkiləri ilə bağlı maarifləmdirilməsi” adlı layihə həyata keçirilmişvəlayihə 600 gənci əhatə etmişdir.<br>• “Maarifpərvərlik” Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası İctimai Birliyi tərəfindən 01 sentyabr – 28 noyabr 2014-cü il tarixlərdə “Bələdiyyə seçkilərində gənclərin fəallığının və iştirakçılığının artırılması” adlı layihə həyata keçirilmiş və layihə 96 gənci əhatə etmişdir.<br>• “Demokratik Azərbaycan Naminə” İctimai Birliyi tərəfindən25 iyul – 25 oktyabr 2014-cü il tarixlərdə “Bələdiyyə seçkiləri 2014” adlı layihələri dəstəklənmiş və layihə 60 gənci əhatə etmişdir. | |
| 6.5.8. | Gənclər təşkilatlarının fəaliyyətini əks etdirən sərgilərin təşkil edilməsi | 2012-2015 | Gənclər və İdman Nazirliyi, digər aidiyyəti qurumlar | **GİN:** 28-30 noyabr 2012-ci il tarixlərdə Bakı Ekspo mərkəzində Gənclər təşkilatlarının IV Respublika sərgisi keçirilmişdir. Sərgidə 72 gənclər təşkilatı iştirak etmişdir. Bundan başqa "Azərbaycan gəncləri 2011-2015-ci illər" Dövlət Proqramı haqqında ayrıca stend tərtib edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gənclər təşkilatlarının IV Respublika sərgisi ilə tanış olmuşdurlar. | Tam icra olunub |
| 6.5.9 | Gənclərin könüllü fəaliyyətə həvəsləndirilməsi | 2011-2015 | Gənclər və İdman Nazirliyi | **GİN:** 2012-ci ildə “Eurovision-2012” Beynəlxalq Mahnı Müsabiqəsinin təşkili və keçirilməsi ilə bağlı 1200-dək könüllü cəlb edilmiş, onlardan 800 nəfər 8 mövzuda təlimlərə cəlb edilmişdi. 30 günlük təlim kursu keçirilmişdir.<br>2013-cü ilin may ayında “Könüllü könüllülük” adlı kitab hazırlanaq nəşr olunmuşdur.<br>5 dekabr 2013-cü il tarixdə Beynəlxalq Könülllülər Günü ilə əlaqədar Bakı şəhərində mədəni tədbir təşkil edilmiş və bu sahədə fəal olan gənclər mükafatlandırılmışlar.<br>Gənclər təşkilatlarının aşağıdakı layihələrinə dəstək göstərilmişdir.<br>• 2011-ci ildə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən 20 min tirajla “Könüllük pasportu” çap edilmiş və gənc könüllülərə təqdim edilmişdir;<br>• 05-10 mart 2012-ci il tarixlərdə “İnkişaf Naminə Təşəbbüs” və “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birlikləri tərəfindən “Könüllülərimiz daim inkişafda” adlı layihə həyata keçirilmiş və layihə 800-dək gənci əhatə etmişdir;<br>• Regionlararası könüllülük mübadiləsinin həyata keçirilməsi üçün 2013-2015-ci illərdə ARGTMŞ tərəfindən “Azərbaycan Könüllü Xidməti Proqramı” layihəsi həyata keçirilmşdir. Layihə çərçivəsində 100 gənc 15 gənclər evi/mərkəzlərində könüllü kimi fəaliyyət göstərmişlər. Bu layihəyə görə ARGTMŞ Aİ-nın “Erasmus+” | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | proqramının “Avropa Könüllülü Xidməti” üzrə akkreditasiya şəhadətnaməsini almışdır;<br>• 2013-cü ildə “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyi tərəfindən “Step-İn Milli Könüllülük Şəbəkəsi” adlı layihə həyata keçirmiş və layihə 3212 gənci əhatə etmişdir;<br>• 27-30 aprel 2013-cü il tarixlərdə Gəncə şəhərində “Azərbaycan Könüllülər” İctimai Birliyi tərəfindən “Gənclərin I Könüllük Forumu” keçirilmişdir.<br>• 20 sentyabr – 20 dekabr 2013-cü il tarixlərdə “Gəncliyə Dəstək” İctimai Birliyi tərəfindən “Aktivəmsə varam” adlı layihə həyata keçirilmiş və layihə 80 gənci əhatə etmişdir;<br>• 20 sentyabr – 20 noyabr 2013-cü il tarixlərdə Azərbaycan Gənclər İttifaqı tərəfindən “Bakı gəncləri arasında könülüllüuk hərəkatının təbliği” adlı layihə həyata keçirilmiş və layihə 636 gənci əhatə etmişdir;<br>• 01 oktyabr – 20 dekabr 2013-cü il tarixlərdə “Dünyaya Pəncərə” Biləsuvar Gənclərin İctimai Birliyi tərəfindən “Sağlam gənclik – sağlam gələcək” adlı layihə həyata keçirilmiş və layihə 90 gənci əhatə etmişdir;<br>• 10 iyul – 10 sentyabr 2014-cü il tarixlərdə “Dan” Beynəlmiləlçi Gənclər İctimai Birliyi tərəfindən “Gənc könüllülər arasında əməkdaşlıq və mübadilə” adlı layihə həyata keçirilmiş və layihə 1062 gənci əhatə etmişdir;<br>• 15 iyul 2014 – 31 yanvar 2015-ci il tarixlərdə “Bizim Nəsil” Gənclərin Regional İnkişaf Assosiasiyası İctimai Birliyi tərəfindən “Regionlarda “Gənc könüllülər klubu”nun yaradılması, gənclərin könüllü fəaliyyətə həvəsləndirilməsi – 2-ci mərhələ adlı layihə həyata keçirilmiş və layihə 3.500 gənci əhatə etmişdir. | |
| **6.6.** | **Gənclərin sağlamlığının qorunması və həssas qruplardan olan gənclərin dəstəklənməsi** | | | | |
| 6.6.1. | Rayon və şəhərlərdə zərərli vərdişlərin profilaktikası ilə bağlı seminar, konfrans, treninq, sərgi, festival, müsabiqə, | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Mədəniyyət və | **GİN:** 2 sentyabr 2011-ci ildə Balakən rayonunda ”Gənclər zərərli vərdişlərə qarşı birləşir” devizi altında Şəki-Zaqatala zonasına daxil olan rayon (şəhər) gənclər və idman idarələri rəislərinin və fəal gənclərin iştirakı ilə zona seminar - müşavirəsi keçirilmişdir.<br>24 və 28 sentyabr 2011-ci ildə İctimai TV-də QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun dəstəyi ilə Nazirlik tərəfindən “Gənclər | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | mədəni-kütləvi aksiya və təşviqat kampaniyalarının keçirilməsi, sosial reklam çarxlarının hazırlanması və televiziya kanallarında işıqlandırılması, teatr tamaşalarının hazırlanması, onların rayon və şəhərlərdə nümayişinin təşkil olunması | | Turizm Nazirliyi, Milli Televiziya və Radio Şurası, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, yerli icra hakimiyyəti orqanları | sağlam həyat tərzini seçir" mövzusunda televeriliş təşkil olunmuşdur.<br>30 mart - 15 may 2012-ci ildə Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə "Gənclərin İnkişafı Naminə" İB ilə birgə "Çağırışçı gənclər arasında İİV/QİÇS-ə qarşı mübarizə tədbirləri" adlı layihə həyata keçirilmişdir. Layihə çərçivəsində Goranboy, Tərtər, Şamaxı, Oğuz, Hacıqabul, Salyan rayonlarından olan çağırışçı və digər kateqoriyadan olan gənclər arasında zərərli vərdişlərlə bağlı maarifləndirmə kampaniyası keçirilmişdir.<br>17-19 may 2012-ci ildə İsmayıllı, Qəbələ, Ağdaş, Şəmkir və Daşkəsən rayonlarında "Gənclər zərərli vərdişlərə qarşı birləşir" devizi altında mədəni-kütləvi aksiyalar keçirilmişdir.<br>26 iyun - narkomanlıq əleyhinə mübarizə günü ilə əlaqədar "Həyatla oyun" adlı maarifləndirici teatr tamaşası hazırlanmış və 21 iyun 2012-ci ildə Gənc Tamaşaçılar Teatrında nümayiş olunmuşdur.<br>Nazirliyin dəstəyi ilə "No Smoking Film Festival"ı keçirilmişdir.<br>2014-cü ildə 10 orta ixtisas təhsil müəssisəsində və 12 rayon/şəhərdə narkomaniya və QİÇS-ə qarşı hazırlanmış "Həyatla oyun" adlı maarifləndirici teatr tamaşası nümayiş etdirilmişdir.<br>25 iyun 2014-cü il tarixdə Gənclər və İdman Nazirliyi tərəfindən "Addım" Yaradıcı Gənclər Assosiasiyası ilə birgə Gənc Tamaşaçılar Teatrında "Sağlam Həyat" Yaradıcılıq Sərgisi layihəsinin yekun tədbiri keçirilmişdir.<br>27 mart-02 aprel 2015-ci ildə "Narkostop" devizi altında Gənclərin III Ümumrespublika Teatr Festivalı keçirilmişdir.<br>2015-ci ilin may ayında GİN Respublika QİÇS-lə Mübarizə Mərkəzi ilə birgə Azərbaycan Dövlət Aqrar və Lənkəran Dövlət Universitetləri, Ağdaş Pedaqoji Texnikumu, Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala, Şəki filialları, Tovuz Dövlət Sosial-İqtisadi, İsmayıllı Dövlət Humanitar və Texnologiya, Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleclərində QİÇS-dən vəfat edən insanların Ümumdünya xatirə günününə həsr olunmuş aksiyalar keçirmişdir.<br>2015-ci ilin fevral ayında Bakı şəhərinin bütün rayonlarında Abşeron rayonunda və Sumqayıt şəhərində, eləcə də 1-7 mart tarixlərdə Hacıqabul, Saatlı, Sabirabad, İmişli, Beyləqan, Lerik, Astara rayonlarında "Həyatla oyun" adlı maarifləndirici teatr tamaşası nümayiş etdirilmişdir. | |
| 6.6.2. | Gənclər arasında sağlam həyat tərzinin kütləvi bədən tərbiyəsi və | Mütəmadi | Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi | **GİN:** 2013-2014-cü illər ərzində gənclər arasında sağlam həyat tərzinin kütləvi bədən tərbiyəsi və idman vasitəsilə geniş təbliğ edilməsi məqsədilə 12 şəhər və rayonda Gənclərin Sağlamlıq Festivalları keçirilmişdir. Tədbirlərdə gənclər idmanın müxtəlif növləri üzrə güclərini sınamış, maraqlı nömrələr | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | idman vasitəsilə geniş təbliğ edilməsi | | | nümayiş etdirmişlər. Respublikanın tanınmış incəsənət ustalarının iştirakı ilə konsert proqramları təşkil edilmiş, sağlam həyat tərzinə çağırışlar səsləndirilmişdir.<br>2013-2015-ci illərdə Nazirlik Səhiyyə Nazirliyi ilə birgə gənclər arasında fiziki aktivliyin artırılmasını təbliğ etmək məqsədilə, Nərimanov, Binəqədi və Xəzər rayonlarında “Fəal ol! Sağlam ol! Həyat boyu qalib ol!” şüarı altında Festivallar keçirmişdir.<br>23 iyun 2014-cü il tarixdə Bakı şəhərində, 08 iyul 2014-cü il tarixdə isə Quba rayonunda “Gənclərin Olimpiya və Sağlamlıq Festivalı” keçirilmişdir. Festivallarda 2 mindən çox gənc iştirak etmişdir. | |
| 6.6.3. | Sağlam həyat tərzi və reproduktiv sağlamlıq sahəsində maarifləndirmə işinin genişləndirilməsi | Mütəmadi | Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | **GİN:** 19 oktyabr 2011-ci ildə Bakı şəhərində Nazirlik və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının ofisində Sağlam həyat tərzi üzrə gənc təlimçilərin Resurs Mərkəzi açılmışdır.<br>2012-ci ildə Nazirlik BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə sağlam həyat tərzi və reproduktiv sağlamlıq məsələlərini əks etdirən “Yeniyetmələr üçün Sağlam Həyat Tərzi” həmyaşıd təlimçilər üçün təlim vəsaiti hazırlanmışdır.<br>14-19 may 2012-ci ildə Bakı şəhərində sağlam həyat tərzi və reproduktiv sağlamlıqla bağlı təlimçilər üçün 5 günlük təlim kursu keçirilmişdir.<br>1–30 iyun 2014-cü ildə Bakı şəhərində ”İnkişaf Naminə İdman” İctimai Birliyi tərəfindən “Sağlam həyat tərzi və reproduktiv sağlamlıq üzrə təlim vəsaitinin tanıdılması və yayılması layihəsi” həyata keçirilmişdir. | Tam icra olunub |
| 6.6.4. | Gənclər üçün ümumi “Qaynar xətt”in yaradılması və yüksək riskli qruplardan olan gənclərin psixoloji reabilitasiyasının təşkil edilməsi | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | **GİN:** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə 2006-cı ildən etibarən “Gənclər üçün krizis telefon xətti” layihəsi “İnkişaf Naminə Təşəbbüs” İctimai Birliyi tərəfindən həyata keçirilir. 2013-cü ildə layihənin icrası nəticəsində istifadəyə verilmiş 510-66-36 nömrəli qaynar xəttin fəaliyyəti davam etdirilmiş, hər ay təhminən 2000-dək gəncə anonim xidmət (məsləhət, böhran vəziyyətindən çıxış və yönləndirmə) göstərilmişdir. Bütün zənglər təhlil edilmiş, aylıq və illik hesabatlar hazırlanmışdır.<br>Virtual psixoloji yardım məqsədilə http://www.helpline.initiative.az web səhifə hazırlanmış, 10 sentyabr “Ümumdünya intiharların qabağını alınma günü” və 10 oktyabr “Ümumdünya psixi sağlamlıq günü” ilə əlaqələr təşviqat və təbliğat kampaniyaları keçirilmişdir.<br>Nazirlik tərəfindən 2012-ci ildə sosial müdafiəyə ehtiyacı olan yeniyetmə və gənclər üçün aşağıda qeyd olunan yay düşərgələri təşkil olunmuşdur:<br>- 20 iyun - 18 iyul tarixlərdə Bakı şəhəri Bilgəh qəsəbəsində 100 nəfər xüsusi qayğıya ehtiyacı olanlar üçün yay düşərgəsi; | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | - 1-20 iyul tarixlərdə Qusar rayonunun Yasab kəndində 50 nəfər xüsusi qayğıya ehtiyacı olan yeniyetmə və gənclər üçün yay istirahət düşərgəsi;<br>- 4 avqust – 2 sentyabr tarixlərdə Bakı şəhərində 260 nəfər fiziki imkanları məhdud və məcburi köçkün gənclər üçün reabilitasiya və inteqrasiya məqsədli yay düşərgəsi.<br>2013-cü ildə:<br>-Iyun-iyul aylarında Respublika Uşaq istirahət və sağlamlıq Mərkəzində 120 nəfər fiziki imkanları məhdud yeniyetmə və gənclər üçün düşərgə;<br>-1-21 iyul - 30 nəfər xüsusi qayğıya ehtiyacı olan yeniyetmələr üçün Qusar rayonunun Yasab kəndində yay sağlamlıq düşərgəsi;<br>-10 iyul - 26 avqust - Bakı şəhəri Bilgəh qəsəbəsində 150 nəfər xüsusi qayğıya ehtiyacı olanlar üçün yay düşərgəsi;<br>- dekabrın 20-də “Ramin” şadlıq evində 350 nəfər yeniyetmə və gənc üçün “Yeni il” şənliyi keçirilmişdir.<br>-19 iyul 2014-cü il tarixdə xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclər (150 nəfər) üçün (I növbə 50 nəfər), 21 iyul-5 avqust (II növbə 50 nəfər) və 7-21 avqust (III növbə) Bakı şəhəri Bilgəh qəsəbəsində yerləşən ”Məslək” Əqli və Fiziki Qüsurlu Uşaqlara Qayğı İctimai Birliyinin xüsusi qayğıya ehtiyacı olanlar üçün düşərgəsində reabilitasiya məqsədli yay düşərgəsi təşkil edilmişdir. 10-24 noyabr 2014-cü ildə 100 nəfər hemofiliyalı uşaq və gənc, habelə onların ailə üzvləri üçün Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzində istirahət, müalicəvi idman və təlim kursları təşkil edilmişdir.<br>19 noyabr 2014-cü ildə sosial müdafiəyə ehtiyacı olan yeniyetmə və gənclər arasında “İdmanda qələbə - həyatda qələbə!” adlı inklüziv aksiya keçirilmişdir. | |
| 6.6.5. | Erkən nikahların qarşısının alınması məqsədilə maarifləndirmə işinin aparılması | 2011 - 2015 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi | **GİN:** Nazirlik tərəfindən “Hüquqlarını tanı” devizi altında layihə keçirmiş və 25 rayon və şəhərdə fəaliyyət göstərən Gənclər Evində maarifləndirmə işi aparılmış, təlim kursları və seminarlar keçirilmişdir. “Gənclərin sosial təşəbbüsləri” festivalı 2013-cü ildə keçirilmiş və tədbir çərçivəsində 14 qısametrajlı film hazırlanmışdır. Qısametrajlı filmlər arasında erkən nikah probleminə həsr olunmuş təsirli sosial çarxlar vardır. Həmçinin, 2014-cü ilin aprel-iyun ayları ərzində insan hüquqları sahəsinə aid olan mövzularda 25 qısametrajlı film hazırlanmış və müsabiqə keçirilmişdir. Münsiflərin qərarı ilə Lənkəran şəhərini təmsil edən gənclərin filmi qalib elan olunmuşdur. Həmin film erkən nikahın fəsadlarına həsr olunmuş, televiziya kanallarında nümayiş etdirilmiş və sosial şəbəkələrdə paylaşılmışdır. | Tam icra olunub |
| 6.6.6. | Cəzaçəkmə | Mütəmadi | Əmək və Əhalinin | **GİN:** 2011-2014-cü illər ərzində cəzaçəkmə müəssisələrindən azad olan | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | müəssisələrindən azad olan gənclərin reabilitasiyası məqsədilə tədbirlərin həyata keçirilməsi | | Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi | gənclərin reabilitasiyası məqsədilə Penitensiar Xidmətin Tərbiyə müəssisəsində cəzaçəkən gənclərlə görüşlər keçirilmiş və onlara lazımi idman avadanlıq və ləvazimatları paylanılmışdır.<br>2014-cü ildə Gənclər və İdman Nazirliyinni dəstəyi ilə aşağıdakı layihələr QHT-lər tərəfindən həyata keçirilmişdir:<br>-“Gənclərin Sosial Problemlərinin Həllinə Kömək” İctimai Birliyi tərəfindən "Cəzaçəkmə müəssisələrindən azad olan gənclərin reabilitiyasına ictimai dəstək" layihəsi;<br>- “Gənc Hüquqşünas Qadınlar Hüquqi İslahatlar Uğrunda” İctimai Birliyi tərəfindən "Keçmiş məhbus gənclərə hüquqi dəstək və həmin gənclərə qarşı ayrı-seçkiliyin aradan qaldırılması" layihəsi;<br>- “Rezonans” Gənclərin İctimai Birliyi tərəfindən “Cəza çəkmə müəssisələrindən azad olan gənclərin reabilitasiyası proqramı” layihəsi. Layihənin icrası 2015-ci ilin mart ayına kimi davam etmişdir;<br>- 1 sentyabr - 15 noyabr 2014-cü il tarixlərdə “Gənclərin Hüquqi Maarifləndirilməsi” İctimai Birliyi tərəfindən “Cəza çəkməkdən azad edilmiş gənclərin sosial adaptasiyası mərkəzinin yaradılması” layihəsi;<br>- 15 noyabr 2014-cü il tarixdən 15 mart 2015-ci il tarixə qədər “Yeni Həyat – cəza çəkməkdən azad olunacaq gənclər üçün azadlığa hazırlıq kursları” layihəsi. | |
| **6.7.** | **Tələbələrin elmi, mədəni fəaliyyətinin dəstəklənməsi və sosial müdafiəsi** | | | | |
| 6.7.1. | “Azərbaycan tələbə kartı”nın tətbiq edilməsi və gənclərin vahid beynəlxalq güzəştli kartlar sisteminə qoşulmasına şərait yaradılması | 2011-2012 | Gənclər və İdman Nazirliyi,<br>Təhsil Nazirliyi | **GİN:** “Azərbaycan tələbə kartı”nın tətbiq edilməsi və gənclərin vahid beynəlxalq güzəştli kartlar sisteminə qoşulması məqsədi ilə ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri haqqında toplanmış məlumatlar əsasında 2011-2014-cü illər ərzində 197.602 nəfər tələbə ödənişsiz olaraq "Azərbaycan tələbə kartı" ilə təmin edilmişdir. "Azərbaycan Tələbə Kartı" Avropa Gənclər kartı (EYCA) ilə birgə buraxılır. Plastik Kartın üzərində Avropa Gənclər Kartının loqosu var və ona uyğun olaraq kartın içində mikroçip yerləşdirilib. Bu da kart sahibinə Avropanın 37 ölkəsində aşağıdakı 80.000-dən artıq və Azərbaycanda 450-dən artıq obyektlərində 5%-dən - 55%-dək endirimlər təklif edilmişdir:<br>- səyahət zamanı: otellər və hostellər, ekskursiyalar və turlar;<br>- nəqliyyat: qatarlar, avtobuslar, hava və su nəqliyyatı;<br>- mağazalar: kitab, idman, paltar və digər;<br>- yemək obyektləri: restoranlar və kafelər;<br>- xidmətlər: sığorta, abunə servisi, bələdçi; | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | "Azərbaycan Tələbə Kartı" tələbələrə pulsuz təqdim olunmuşdur.Müəssisələrin adlarını, ünvanlarını, mövcud olan faiz dərəcələrini öyrənmək üçün www.countdown.az, www.eyca.az adlarında internet saytları yaradılmışdır.<br>2012-ci ilin may ayında "Azərbaycan Tələbə Kartı"nın ilk təqdimatında təhsildə və ictimai işlərdə fəal olan 150 nəfərə tələbə kartı təqdim edilmişdir. Ümumilikdə 2012-ci ilin may ayından 2013-cü ilin sonuna qədər təqribən 197 min nəfərə "Azərbaycan Tələbə Kartı" paylanmışdır. | |
| 6.7.2. | Tələbə yataqxanaları sisteminin təkmilləşdirilməsi | 2012-2015 | Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları | Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmiş və bu sənəddə "Müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması" bəndi öz əksini tapmışdır. | Qismən icra olunub |
| 6.7.3. | Ali və orta ixtisas təhsili müəssisələrində tələbə-gənclər təşkilatlarının layihə və proqramlarının dəstəklənməsi | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi | **GİN:** 13-18 fevral 2012-ci il tarixlərində Quba rayonunda Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ilə birgə respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbə-gənclər təşkilatlarının sədr və sədr müavinləri üçün "Qış Liderlik Məktəbi"mövzusunda təlim kursu keçirilmişdir.<br>2-4 may 2012-ci il tarixlərində Bakı şəhərində Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ilə birgə respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbə-gənclər təşkilatlarının sədr və sədr müavinləri üçün "Təşkilati idarəetmə" mövzusunda təlim kursu keçirilmişdir.<br>06-12 sentyabr 2012 tarixlərində respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbə-gənclər təşkilatlarının sədr və sədr müavinləri üçün "Liderlik məktəbi"mövzusunda təlim kursu keçirilmişdir.<br>12-18 fevral 2013-cü il tarixdə "Qış Parlamenti" layihəsi, 2013-cü ilin aprel ayından başalayaraq "Gəzən kitabxana" I və II layihələri həyata keçirilmişdir.<br>2013-cü ilin yanvar-may ayları ərzində Bakı şəhərində yerləşən 14, 266, 19, 211, 54, 111, 240 , 9, 5, 292, 44, 164 saylı orta məktəblərdə "İşıqlı həyat" sosial yönümlü layihə ilə bağlı məktəblilərlə təbliğat xarakterli görüşlər keçirilmişdir.<br>Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən 12-18 fevral 2014-cü il tarixlərdə Mingəçevir şəhərində və 19-25 fevral 2014-cü il tarixlərdə Qəbələ rayonunda ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinin iştirakı ilə "VIII Liderlik məktəbi", "Yaşayan tarix 3", "Danışan kitablar", "Bilirsənmi?" adlı layihələr həyata keçirilmişdir.<br>11 mart 2014-cü il tarixindən başlayaraq- 11 sentyabr 2014-cü il | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | tarixədək "İşıqlı həyat" sosial yönümlü layihənin təbliğatının aparılması məqsədilə "Azad Azərbaycan" 106.3 FM radiosunda və "Xəzər" televeziyasında "Avtostop" verilişində "İşıqlı həyat" rubrikası yaradılmışdır.<br>Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən təqdim edilmiş "Səmərəli yay: iş imkanları və onların təsnifatı", 7-13 və 14-20 iyul 2014-cü il tarixlərdə Lənkəran şəhərində "IX Liderlik məktəbi", "İnsan Hüquqları Akademiyası" və "Avropa Tələbələr Birliyinin idarə heyətinin 67-ci iclası" adlı layihələr həyata keçirilmişdir. | |
| 6.7.4. | Təhsildə və ictimai həyatda xüsusi fərqlənən tələbə gənclərə adlı təqaüdlərin verilməsi sisteminin təkmilləşdirilməsi | 2011-2012 | Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Maliyyə Nazirliyi | **GİN:** Təhsildə və ictimai həyatda xüsusi fərqlənən tələbə gənclərə adlı təqaüdlərin verilməsi ilə bağlı təkliflər hazırlanaraq Təhsil, Ədliyyə və Maliyyə Nazirliklərinə göndərilmişdir. Təqaüdlərin verilməsi ilə bağlı qərar Təhsil Nazirliyinin və ali məktəblərin səlahiyyətinə daxildir. | Tam icra olunub |
| **6.8.** | **Gənclərin beynəlxalq sahədə əməkdaşlığı** | | | | |
| 6.8.1. | Beynəlxalq və regional təşkilatların gənclər proqramları ilə əməkdaşlığın genişləndirilməsi | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Xarici İşlər Nazirliyi | **GİN:** 15 may 2012-ci il tarixdə Bakı şəhərində "Avropa İttifaqının "Gənclər fəaliyyətdə" proqramında gənclər təşkilatlarının iştirak səviyyəsinin artırılması" mövzusunda gənclər təşkilatları üçün seminar keçirilmiş və proqramın şərtləri barədə hazırlanmış izahlı məlumat toplusu təşkilatlara paylanmışdır.<br>23-29 sentyabr 2012-ci il tarixlərdə Afrika İttifaqının gənclərindən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri təşkil edilmişdir. Səfərin yekunu olaraq 56 ölkəninin gənclər təşkilatını birləşdirən Pan-Afrika Gənclər İttifaqı ilə Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (ARGTMŞ) arasında əməkdaşlıq haqqında Memorandum imzalanmışdır.<br>Bakı şəhərində BMT-nin Ətraf Mühitin Mühafizəsi Proqramının və Azərbaycan Hökumətinin birgə təşkilatçılığı ilə keçirilmiş "Yaşıl Həftə" adlı beynəlxalq tədbir çərçivəsində 12-16 noyabr 2012-ci il tarixlərdə GİN, İDEA ekoloji kampaniyasının və ARGTMŞ-ın birgə təşkilatçılığı ilə "Rio+20-dən gənclər nə əldə etdilər?" mövzusunda Beynəlxalq Gənclər Forumu keçirilmişdir. Forumda Avropa və Afrika ölkələrindən 60-a yaxın gənc iştirak etmişdir.<br>14 may 2013-cü il tarixdə Bakı şəhərində "Avropa Şurasının Avropa Gənclər Fondu və Fondun yeni fəaliyyət sistemi haqqında gənclər təşkilatlarının məlumatlandırılması" mövzusunda gənclər təşkilatları üçün | Tam icra olunub |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | seminar keçirilmişdir.<br>“Avropa Tələbələr Forumu-Bakı” İctimai Birliyi tərəfindən 19-25 mart 2013-cü il tarixlərdə “Novruz” Beynəlxalq Gənclər Festivalı keçirilmişdir. Festivalda Azərbaycan, Avstriya, Belçika, Gürcüstan, Çexiya, Rusiya, Macarıstan, Qazaxıstan, İslandiya, İsrail, İtaliya, Polşa, Litva, Makidoniya, Montoneqro, Portuqaliya, Moldova, Rumıniya, Bolqarıstan, Slovakiya, İspaniya, İsveç, Niderland, Fələstin, Özəbəkistan, Ukrayna və Türkiyədən nümayəndələr iştirak etmişdir.<br>17-25 iyun 2013-cü il tarixlərdə Azərbaycan Demokartik Tələbə Gənclər Təşkilatı tərəfindən Masallı rayonunda “Şərq Tərəfdaşlığı Gənclər Şəbəkəsi” Regional Platforma Modeli adlı beynəlxalq layihə həyata keçirilmişdir. Layihədə Azərbaycan, Ukrayna, Polşa, Rumıniya, Litva, Bolqarıstan, Belarus, Moldova, Gütcüstan, Litva, İsveç, Latviya, Almaniyadan olan gənclər təşkilatlarının nümayəndələri iştirak etmişdir.<br>2012-2015-ci illərdə Avropa İttifaqının (Aİ) “Gənclər fəaliyyətdə” proqramı çərçivəsində gənclər təşkilatları tərəfindən aşağıdakı beynəlxalq layihələr həyata keçirilmişdir:<br>• “Gələcəyə Körpü” İctimai Birliyi tərəfindən Gəncə şəhərində "Gender bərabərliyinə gedən yol”, “Azərbaycanda gənclər işinin inkişaf etdirilməsində Avropa təcrübəsinin rolu”, “Gənclərin iştirakçılığı və əməkdaşlığı üçün teatr bacarıqları”, “İctimai işlərdə fəallıq – vətəndaşlıq təhsili” adlı beynəlxalq layihələr;<br>• Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatı tərəfindən Bakı şəhərində “Avropalıyıqmı?!: İnteqrasiya, Kimlik, Müstəsnalıq” və “İncəsənət fəaliyyətdə 2” adlı layihələr;<br>• “Azərbaycan Tələbələri” İctimai Birliyi tərəfindən Bakı şəhərində “Dəyişikliklər küləyi – Kommunizm rejiminin dağılmasından sonra Avropa miqrasiyası” adlı layihə;<br>• Gənc Hüquqşünaslar Birliyi tərəfindən Yevlax şəhərində “Həyat gözəldir” adlı beynəlxalq layihə;<br>• Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı tərəfindən Bakı şəhərində və Masallı rayonunda “Birlikdə daha yaxşı yaşayış üçün” adlı beynəlxalq layihə;<br>• “Sağlam Gəncliyə Doğru” İctimai Birliyi tərəfindən Bakı şəhərində “Sosial dəyişiklik üçün gənc avropalı liderlər”, “Daha güclü cəmiyyət üçün əl-ələ” adlı beynəlxalq layihələr;<br>• “Sağlam Düşüncə” Gənclər Təşkilatı tərəfindən Şəki şəhərində “Açıq | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | hava şəraitində öz hüquqlarımızı öyrənək" adlı beynəlxalq layihə;<br>• "Demokartik Gənclər" İctimai Birliyi tərəfindən Bakı şəhərində "Fərqli və Oxşar" adlı beynəlxalq layihə;<br>• Azərbaycan Maarifçi Gənclər Təşkilatı tərəfindən Bakı şəhərində "Avropa gənclər əməkdaşlığının inkişafı" adlı beynəlxalq layihə;<br>• "Göyçay İnkişaf Mərkəzi" Gənclər İctimai Birliyi tərəfindən Bakı şəhərində "Nar gənclik meyvəsi kimi" adlı beynəlxalq layihə;<br>Bu beynəlxalq layihələrdə Serbiya, Makedoniya, Ukrayna, Gürcüstan, Yunanıstan, İtaliya, Portuqaliya İspaniya, Rumıniya, Kipr, Rusiya, Türkiyə, Polşa, Litva, Almaniya, İngiltərə, Moldova, Fransa, Çexiya, Latviya, Belarus, Estoniya, Xorvariya, Bolqarıstan, Macarıstan, Malta, Sloveniya, Niderlanddan 500-ə yaxın nümayəndə iştirak etmişdir.<br>2013-2015-ci illərdə ARGTMŞ Avropa Şurasının Gənclər üzrə Məşvərətçi Şurasına üzv seçilmiş və Avropa gənclərini təmsil edən 30 nümayəndədən biri olmuşdur.<br>2014-cü ilin fevral ayında "İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Modeli" adlı layihə həyata keçirilmişdir.<br>12-15 mart 2014-cü il tarixlərdə Bakı şəhərində "Böyük İpək Yolu" Beynəlxalq Gənclər İttifaqına üzv olan ölkələrin gəncləri arasında "Gənc şairələrin II Beynəlxalq Forumu" keçirilmişdir. Forumda Azərbaycan, Banqladeş, Gürcüstan, Yunanıstan, Macarıstan, Hindistan, İraq, İsrail, İordaniya, Kırğızıstan, Makedoniya, Moldova, Mərakeş, Pakistan, Rumuniya, Rusiya, Tacikistan, Tunis, Türkiyə, Ukrayna, Malaziya, Özbəkistandan olan gənclər iştirak etmişdirlər.<br>2-9 sentyabr 2013-cü il tarixlərdə Serbiyanın Belqrad və Novi Sad şəhərlərində Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) ilə Serbiya Universitetləri Tələbə Konfransı (SKONUS) arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən tələbə mübadiləsi aparılmış və mübadilədə 5 azərbaycanlı gənc iştirak etmişdir. | |
| 6.8.2. | "Azərbaycanın Gənc Dostları" mübadilə proqramının həyata keçirilməsi | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Xarici İşlər Nazirliyi | **GİN:** 23 avqust - 1 sentyabr 2012-ci il tarixlərdə imzalanmış əməkdaşlıq protokoluna əsasən mərakeşli gənclərdən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri təşkil olunmuşdur.<br>13-20 dekabr 2012-ci il tarixlərdə Sloveniyanın gənclər təşkilatları, gənc tədqiqatçıları və dövlət qulluğunda çalışan gənclərindən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri təşkil edilmişdir.<br>Moskva Dövlət Linqvistik Universitetinin Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı tərəfindən Universitetin Azərbaycan dili kursunun tələbələrinin 2011- | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | ci ildə Azərbaycana səfəri təşkil edilmişdir.<br>GİN və AR-nın Misirdəki Səfirliyinin birgə təşkilatçlığı ilə Misirin Ayn-Şəms Universitetinin Ədəbiyyat fakültəsində Azərbaycan dilini və mədəniyyətini öyrənən və imtahanlarda yüksək nəticə əldə etmiş 20 ən qabaqcıl tələbənin 2012-ci ilin avqust ayında Azərbaycana səfəri təşkil olunmuşdur. | |
| 6.8.3. | Dünya Azərbaycanlı Gənclərinin II Konqresinin keçirilməsi | 2013 | Gənclər və İdman Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi | **GİN:** Gənclər və İdman Nazirliyi tərəfindən Diasporla İş üzrə Dövlət Komitəsinə 26 fevral 2013-cü il tarixli 447/R-02/16 saylı məktub göndərilmişdir. Məktubda Azərbaycanlı Gənclərinin II Konqresinin keçirilməsi məqsədilə Gənclər və İdman Nazirliyinin, Diasporla İş üzrə Dövlət Komitəsinin, Xarici İşlər Nazirliyinin əməkdaşlarından ibarət işçi qrupun yaradılması təklif edilmiş və Konqresin keçirilməsinə dair təkliflərin Komitə tərəfindən Nazirliyə təqdim edilməsi xahiş edilmişdir. Diasporla İş üzrə Dövlət Komitəsinən daxil olmuş məktubda göstərilib ki, "maliyyə vəsaiti ayrılmadığından Dünya Azərbaycanlı Gənclərinin II Konqresinin təşkili mümkün olmamışdır" (No 492/1-8 26 noyabr 2015-ci il)<br><br>**DİDK:** 2012-ci ildə mart ayının 12-də Bakıda, "Gülüstan" sarayında Dünya Azərbaycanlı Gənclər Birliyinin təsis qurultayı keçirilmişdir.<br>Dünya Azərbaycanlı Gənclər Birliyinin Təsis Qurultayına Azərbaycan Respublikası da daxil olmaqla, dünyanın 34 ölkəsindən 356 nümayəndə seçilmişdir. | Qismən icra olunub |
| 6.8.4. | 2015-ci ildə Bakının "Avropa Gənclər Paytaxtı" elan olunması məqsədilə təbliğat işinin aparılması | 2012-2014 | Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti | **GİN:** "Avropa Gənclər Paytaxtının" seçim şərtlərinə əsasən paytaxt şəhər seçimlərdə iştirak edə bilmədiyi üçün Gəncə şəhərinin namizədliyi irəli sürülmüşdür. Bununla bağlı, 2013-cü il noyabr ayının 21-də Yunanıstanın Saloniki şəhərində keçirilən Avropa Gənclər Forumunun ümumi yığıncağında Azərbaycanın ikinci böyük şəhəri Gəncə 2016-cı il üçün Avropanın Gənclər Paytaxtı müsabiqəsinin qalibi elan edilmişdir.<br>2013-2015-ci illərdə Gəncənin "Avropa gənclər paytaxtı" seçilməsi ilə bağlı Avropada geniş və davamlı təbliğat işləri aparılıb. Gəncə 2016-ci ildə "Avropa gənclər paytaxtı" seçilmişdir. | Tam icra olunub |
| 6.8.5. | Xarici ölkələrin gəncləri arasında "Mən Azərbaycan haqqında nə bilirəm?" mövzusunda müsabiqələrin keçirilməsi | 2012-2015 | Gənclər və İdman Nazirliyi, Xarici İşlər Nazirliyi | **GİN:** 2011-2016-cı illərdə Misir, Avstriya, Özbəkistan, Yunanıstan, Moldova, Malayziya, Qazaxıstan, Polşa, Küveyt, Albaniya, Macarıstan, Amerika Birləşmiş Ştatları, Braziliya, Mərakeş, Cənubi Afrika Respublikası, Benin, Lesoto, Mozambik, Uqanda, Zimbabve, Litva, Xorvatiya, Estoniya, Niderland, Vyetnam, Meksika, Kanada, Belçika, Argentina, Avstraliya, Fransa, İsveçrə, İsveç, Bosniya və Herseqovina, İordaniya, Qatar, Tunis, Bəhreyn, Sinqapur, Hindistan, Monteneqro, Rumıniya, Serbiya, Ukrayna, Çex Respublikası, Nepal, Butan və Banqladeşin (48 ölkə) gəncləri arasında "Mən Azərbaycan haqqında nə bilirəm?" esse yazı müsabiqəsi keçirilmiş və 444 qalibin Azərbaycana səfəri təşkil edilmişdir. | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6.8.6. | Xarici ölkələrdə təhsil alan və məzun olmuş azərbaycanlı gənclərin beynəlxalq forumlarının keçirilməsi | 2012-2015 | Gənclər və İdman Nazirliyi, Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Dövlət Neft Fondu | **GİN:** 26-27 avqust 2011-ci il tarixlərdə Bakı şəhəri və İsmayıllı rayonunda "Azərbaycan sənin ağlından interaktiv faydalansın" mövzusunda xaricdə təhsil alan və məzun olmuş azərbaycanlı gənclərin IX Forumu keçirilmişdir. Forumda xaricdə təhsil alan və məzun olmuş 150 gənc iştirak etmişdir.<br>4-8 aprel 2012-ci il tarixlərdə Macarıstan Respublikasının Budapeşt şəhərində "Mən gənc səfirəm" mövzusunda xarici ölkələrdə təhsil alan və məzun olmuş azərbaycanlı gənclərin beynəlxalq forumu keçirilmişdir. Tədbirdə 200 gənc və 50 qonaq iştirak etmişdir.<br>25-28 oktyabr 2012-ci il tarixlərdə Avstriyanın Vyana şəhərində Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının Avstriyadakı Səfirliyi, Gənclər və İdman Nazirliyinin yanında Gənclər Fondu və Xarici Ölkələrdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumu ilə birgə "Ermənistan-Azərbaycan münaqişəsi mövzusunda Avropa dövlətlərində təhsil alan azərbaycanlı tələbələrin Vyana Forumu" keçirilmişdir. Forumda xaricdə təhsil alan və məzun olmuş 50, müxtəlif dövlət orqanlarının nümayəndələri, Azərbaycanın xarici olkələrdəki səfirləri və millət vəkilləri iştirak etmişdir.<br>27-30 mart 2013-ci il tarixlərdə "Azərbaycan 2020. Gənclərin baxışı" mövzusunda İtaliya Respublikasında Xarici Ölkələrdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Roma Forumu keçirilmişdir. Forumda 500-ə yaxın tələbə və məzun, İtaliyanın və Azərbaycanın gənclər təşkilatlarının rəhbərləri, İtaliyanın və Azərbaycanın müxtəlif dövlət orqanlarının rəhbərləri, millət vəkilləri iştirak etmişlər.<br>30 avqust – 1 sentyabr 2013-cü il tarixlərdə Bakı şəhərində və Qəbələ rayonunda Xaricdə təhsil alan və məzun olmuş azərbaycanlı gənclərin XI Beynəlxalq Yay Forumu keçirilmişdir. Forumda xaricdə təhsil alan və məzun olmuş 600 gənc iştirak etmişdir. | Tam icra olunub |
| 6.8.7. | Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində gənclər siyasəti sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi | 2011-2015 | Gənclər və İdman Nazirliyi, Xarici İşlər Nazirliyi | **GİN:** Gənclər və idman sahələrində beynəlxalq əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədi ilə BMT, Avropa Şurası, İƏT, GUAM, MDB və digər beynəlxalq təşkilatlarla, ayrı-ayrı ölkələrin gənclər və idman siyasəti ilə məşğul olan dövlət orqanları ilə iş davam etdirilmişdir. Bu ölkələrlə əməkdaşlığın müqavilə-hüquq bazasını gücləndirmək məqsədi ilə saziş layihələri hazırlanmış və müvafiq qaydada razılaşdırılmışdır. Artıq qüvvədə olan sazişlər çərçivəsində müxtəlif tədbirlər həyata keçirilmişdir. Həmçinin, beynəlxalq tədbirlərdə iştirak etmək məqsədi ilə xarici ölkələrə səfər edən gənclərdən ibarət nümayəndə heyətlərinin səfərlərinin sənədləşdirilməsində onlara müvafiq yardım göstərilmişdir. | Tam icra olunub |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | Gənclər və idman sahələrində beynəlxalq əlaqələrin genişləndirilməsi, əməkdaşlığın və müqavilə-hüquq bazasının gücləndirilməsi məqsədi ilə 2011-2014-cü illərdə Mərakeş, Serbiya, Tacikistan, Gürcüstan, İraq, Albaniya, Macarıstan, Albaniya, Qırğızıstan, Braziliya, Xorvatiya, İran, Yunanıstan, Vyetnam və İtaliyanın gənclər və idman siyasətinə məsul olan dövlət orqanları ilə əmədaşlıq barədə ikitərəfli sənədlər imzalanmışdır.<br>26-29 sentyabr 2011-ci il tarixlərdə Bakı şəhərində "Yeni nəsil: sərhədsiz məsuliyyət" Beynəlxalq Gənclər Forumu keçirilmişdir.<br>19 oktyabr 2011-ci il tarixdə "Postsovet dövrünün 20 ili Azərbaycan və Macar gənclərinin gözü ilə" mövzusunda dəyirmi masa keçirilmişdir.<br>Avropa İttifaqının "Gənclər fəaliyyətdə" proqramı və Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlıq əlaqələri davam etdirilmiş və gənclər təşkilatlarının Avropanın gənclər təşkilatları ilə birgə layihələr həyata keçirmələri təşviq edilmişdir. Eyni zamanda Avropa İttifaqının "Gənclər fəaliyyətədə" proqramında gənclər təşkilatlarının iştirakınıntəmin edilməsi məqsədilə Proqramın "Gənclər pəncərəsi" bölməsi yaradılmışdır.<br>Gənclər Təşkilatları Milli Şurası Dünya Gənclər Assambleyasına, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı və "Azərbaycan Tələbələri" İctimai Birliyi Avropa Tələbələr Birliyinə, "Gənc Tərçüməçilər" İctimai Birliyi Beynəlxalq Tərçüməçilər Federasiyasına, "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyi Avropa Gənc Sahibkarlar Assosiasiyasına və Biznes İnkubasiya üzrə Beynəlxalq Assosiasiyasına, "Gənc Alim, Aspirant və Magsitrlar Cəmiyyəti" İctimai Birliyi Avropa Gənc Alimlər və Tədqiqatçılar Şurasına,Azərbaycan Gənclərinin Avro-Atlantika Təşkilatı BMT-nin İqtisadi və Sosial Şurasına xüsusi məşvərətçi statuslu, Gənclər üçün Təhsil Mərkəzi Avropa Gənclər Klubları Federasiayasına, "Avropa Hüquq Tələbələri Assosiasiyası – Bakı" İctimai Birliyi Avropa Hüquq Tələbələri Assosiasiyasına, "Avropa Gənclər Parlamenti – Azərbaycan" İctimai Birliyi Avropa Gənclər Parlamentinəüzv qəbul edilmişlər. Bundan başqa "Erasmus" Tələbə Şəbəkəsinin Azərbaycan nümayəndəliyi yaradılmışdır.<br>22-27 avqust 2011-ci il tarixlərdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Serbiya Respublikasının Gənclər və İdman Nazirliyi arasında 8 iyun 2011-ci il tarixdə imzalanmış "Gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında" Sazişə uyğun olaraq və British Council-ın "Fəal vətəndaşlar" proqramı çərçivəsində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin əməkdaşları və ictimai fəal gənclərdən ibarət nümayəndə heyəti Serbiyada səfərdə olmuşdur. 5-20 noyabr 2011-ci il tarixlərdə Serbiya nümayəndə heyəti Azərbaycan Respublikasına səfər | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | etmişdir. 2012-ci il üçün əməkdaşlığa dair Fəaliyyət Planı hazırlanmışdır.<br>31 yanvar - 3 fevral 2012-ci il tarixdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəvəti ilə Qırğız Respublikasının Gənclər, Əmək və Məşğulluq Naziri Aliasbek Tolbaşıyeviç Alımkulovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Nazirlikdə təşkil olunmuş görüşdə iki ölkə arasında mövcud əlaqələrin inkişaf perspektivləri və gələcək planlardan danışılmışdır. Görüşün sonunda "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Qırğız Respublikasının Gənclər, Əmək və Məşğulluq Nazirliyi arasında "Gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır.<br>18-22 aprel 2012-ci il tarixdə Küveyt Dövləti Gənclər və İdman məsələləri üzrə Dövlət Komitəsinin sədri, general Feysəl Musaid Əl-Cəzzafın dəvəti ilə Azərbaycan Respublikasının Gənclər və İdman Naziri Azad Rəhimovun rəhbərlik etdiyi nümayəndə heyəti Küveytə səfər etmişlər. Səfər zamanı ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilmişdir.<br>26-30 may 2012-ci il tarixlərdə Birləşmiş Ərəb Əmirlikləri ilə gənclərlə iş sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi, təcrübə mübadiləsinin aparılması məqsədilə 27 nəfərdən ibarət Azərbaycan nümayəndə heyəti Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərinə səfər etmişlər.<br>1-11 iyul 2012-ci il tarixlərdə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 iyun tarixli 2250 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Koreya Respublikasının Milli Gənclər Komissiyası arasında gənclər sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna əsasən Azərbaycan nümayəndə heyəti Koreyada səfərdə olmuş və 26 iyul - 4 avqust 2012-ci il tarixlərdə Koreya gənclərindən ibarət nümayəndə heyəti Azərbaycan Respublikasında qəbul edilmişdir.<br>25-31 avqust 2012-ci il tarixlərdə Misir Ərəb Respublikasının Ayn-Şəms Universitetinin Ədəbiyyat və Dillər fakültəsinin Azərbaycan bölməsinin bir qrup tələbəsinin Azərbaycana səfəri təşkil edilmişdir.<br>20 noyabr - 2 dekabr 2012-ci il tarixlərdə Latın Amerikası (Meksika, Panama, Kosta-Rika və Kolumbiya) ölkələrinin gənclərindən ibarət nümayəndə heyətləri Azərbaycanda səfərdə olmuşdurlar. İştirakçıların seçim prosesini Azərbaycanın Meksikadakı Səfirliyi həyata keçirmiş və qonaqlar arasında senator, yüksək vəzifəli dövlət məmurları, elmi-pedaqoji heyət, jurnalistlər, senatda çalışan əməkdaşlar və gənclər təşkilatlarının rəhbərləri vardır.<br>30 noyabr - 2 dekabr 2012-ci il tarixlərdə İraq Respublikasının gənclər | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | və idman naziri cənab Casim Məhəmməd Cəfərin dəvəti ilə Gənclər və İdman Naziri Azad Rəhimovun rəhbərliyi ilə nümayəndə heyəti İraq Respublikasına səfərləri zamanı iki ölkə arasında əlaqələrin gələcək perspektivləri müzakirə edilmiş və "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İraq Respublikasının Gənclər və İdman Nazirliyi arasında gənclər və idman sahələrində Anlaşma Memorandumu" imzalanmışdır.<br>31 yanvar – 4 fevral 2013-cü il tarixlərdə Afrika İttifaqının nümayəndə heyətinin (Prof. Jan-Pyer Ezin - Afrika İttifaqının (Aİ) Əmək ehtiyatları, elm və texnologiya məsələləri üzrə Komissarı; Dr Raymond Agossou - Gənclərin İnkişaf Proqramına məsul şöbənin müdiri; Daniel Adugna - Afrika İttifaqı (Aİ) Gənclərin Könüllülük Korpusunun eksperti) Azərbaycana səfəri təşkil edilmişdir. Səfər zamanı Afrika İttifaqı ilə gənclər sahəsində əməkdaşlıq əlaqələri müzakirə edilmişdir.<br>3 may 2013-cü il tarixdə Azərbaycan Hökuməti və UNİCEF-in Azərbaycandakı Nümayəndəliyi arasında əməkdaşlığın 20 illik yubileyi münasibətilə gənclər arasında keçirilmiş "Gənclərin təşəbbüsləri" qısametrajlı sosial filmlər festival-müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasimi keçirilmişdir.<br>2-5 may 2013-cü il tarixlərdə Türkiyə Respublikasının Öyrənci Konseyinin nümayəndə heyəti 4 nəfər tərkibdə Azərbaycan Respublikasında qəbul edilmişdilər.<br>21-24 aprel 2014-cü il tarixdə Azərbaycan, Belarus, Qazaxıstan, Qırğız, Tacikistan və Moldova Respublikalarından olan gənc ifaçıların iştirakı ilə "Hünər" (Отвага) Beynəlxalq Vətənpərvərlik Mahnıları Festival-Müsabiqəsi keçirilmişdir.<br>2014-cü ilin mart-may aylarında Danimarka Krallığının Kopenhagen şəhərində keçirilən "Eurovision 2014" Beynəlxalq Mahnı Müsabiqəsində Azərbaycan Respublikasının iştirakı ilə bağlı təşkilati və təbliğat işləri aparılmışdır.<br>26-31 may 2014-cü il tarixdə Gənclər və İdman Nazirliyi tərəfindən Azərbaycan Milli Elmlər Akademiyası, Gənc tədqiqatçıların Avropa Şurası "Eurodoc" və Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyəti ilə birgə "Gənc Alimlərin Beynəlxalq Bakı Forumu" (Baku World Forum of Young Scientists) keçirilmişdir. Foruma dünyanın 96 ölkəsindən 400-dək iştirakçı qatılmışdır.<br>Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən 19-21 may 2014-cü il tarixlərdə "Univiziya" tələbələrin II Beynəlxalq mahnı müsabiqələri keçirilmişdir. | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | 29 sentyabr - 1 oktyabr 2014-cü il tarixlərdə Rusiya Federasiyasının Moskva şəhərində Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (AMOP) V Forumu və ona həsr olunmuş mədəni-kütləvi tədbir keçirilmişdir.<br>24-28 noyabr 2014-cü il tarixdə “Gənclər və könüllülük: gənclərin sosial həyatda və öz həyatlarına təsir edən qərarların qəbulunda iştirakı” adlı beynəlxalq konfrans Bakı və Gəncə şəhərlərində keçirilmişdir.<br>Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının “Gənclər və idman məsələləri üzrə İşçi Qrupu” yaradılmışdır. İşçi qrupda Gənclər və İdman Nazirliyinin 2 əməkdaşı təmsil olunur. İlk iclas 13 fevral 2015-ci il tarixdə İstanbul şəhərində keçirilmiş və əməkdaşlıqla bağlı müxtəlif məsələlər müzakirə edilmişdir.<br>12-13 mart 2015-ci il tarixlərdə “Müstəqil Dövlətlər Birliyinin 2020-ci ilə qədərki müddətdə Beynəlxalq Gənclər Əməkdaşlığı Strategiyasının həyata keçirilməsi üzrə 2016-2017-ci illər üçün Tədbirlər Planı” sənədinin müzakirəsi ilə əlaqədar Minsk şəhərində keçirilmiş ekspert qrupunun iclasında Gənclər və İdman Nazirliyinin əməkdaşı iştirak etmişdir. | |